

## İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Tomas Korlayl**
*Tanınmış qərb filosofu*

**“Kərbəla faciəsindən aldığımız ən gözəl dərs odur ki, Hüseyn və onun silahdaşlarının Allaha necə möhkəm bir imanla bağlanmalarını görürük. Onlar öz əməlləri ilə sübut etdilər ki, haqq ilə batil üz-üzə dayandığı bir məqamda batilin sayca üstün olmasının heç bir əhəmiyyəti yoxdur. Hüseynin bu azlıqla mənəvi qələbəsi məni heyrətə gətirmişdir”.**

imanmedia.ge



## İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Mahatma Qandi**
*Hindistanın dövlət xadimi*

**“Mən İmam Hüseynin – İslamın o böyük şəhidinin həyatını diqqətlə oxumuşam və kifayət qədər Kərbəla tarixinin səhifələrinə diqqət yetirmişəm. Mənə aydın olub ki, əgər Hindistan azad bir ölkə olmaq istəyirsə, gərək İmam Hüseyndən örnək alıb onun yolu ilə getsin”.**

iman.ge



## İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Corc Zeydan**
*Livanlı xristian yazıçı*

**“Kərbəla faciəsi” adlı bir kitab yazmışdır. Orada belə deyir: Hüseynin kəsilmiş başını görcək, hamı təəssüflənərək, kədər hissi keçirdi. Hətta Yezidin də gözü ona sataşarkən, təpədən-dırnağadək titrədi. O, artıq başa düşdü ki, necə də dəhşətli və iyrənc cinayətə əl atıblar.”**

imanmedia.ge



## İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Çarlz Dikkens**
*Tanınmış qərb yazıçısı*

**“Əgər İmam Hüseynin qiyam etməkdə məqsədi öz dünyəvi istəklərinə çatmaq idisə, mən başa düşə bilmirəm ki, nə üçün bacıları, qadınları və uşaqları da bu hadisədə iştirak etmişlər. Ağıl belə hökm edir ki, O, yalnız İslam yolunda bu fədakarlığı etmişdir”.**

iman.ge



## İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Bules Salame**
*Xristian hüquqşünas və yazıçı*

**“Bununla ki, xristianam, amma bəzi gecələr fikirdən yata bilməyərək, kədər və qəm içərisində keçmiş zamanlarda yaşamış şəxsiyyətlər barəsində düşünürdüm. Əli (ə) və Hüseyni (ə) xatırlayır, onların halına acıyaraq, ağlayırdım. Hətta Əli (ə) və Hüseyn (ə) haqqında şerlər də yazdım.”**

imanmedia.ge



## İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Edvard Braun**
*Qeyri-müsəlman tarixçi*

**“Görəsən, elə bir şəxs tapılarmı ki, Kərbəla hadisəsini eşidəndə ürəyi qanla, kədərlə dolmasın? Hətta qeyri-müsəlmanlar da İslam bayrağı altında həyata keçən bu müharibənin pak ruhunu inkar etməyi bacarmazlar.”**

iman.ge

# AŞURA VAQİƏSİ QURAN VƏ HƏDİSLƏRDƏ

İmam Hüseyn (ə) buyurubdur: "Mənim yolumda və əqidəmdə olan şəxs heç zaman Yezid və Yezid kimilərdən beyət etməz".




***İnsanlara əbədi dərs verəcək misilsiz bir hərəkat kimi tarixə düşən Kərbəla vaqiəsini digər hadisələrdən ayıran əsas fərqlərdən biri onun baş vermə səbəbi – İmam Hüseynin (ə) hədəfi, məqsədi idi. Onu 13 əsrdən çox vaxt keçməsinə baxmayaraq, indiyə kimi insanların ürəyində, yaddaşında yaşadan əsas səbəb – İmam Hüseynin (ə) bu qiyamdakı hədəfi olmuşdur. Görəsən qısa zaman müddətində baş vermiş bu hadisəni illərcə davam edən müharibələrdən daha əzəmətli edən səbəb – İmam Hüseynin (ə) məqsədi nə idi? Həzrətin (ə) Qiyamətə kimi təsirli olacaq bu qiyamdakı hədəfi nə idi?***

Bütün bu suallara daha dolğun cavab tapmaq üçün Quran və hədislərə müraciət etməyimiz doğru olar.

Allah Təala Qurani-Kərimdə buyurur: "(Ey müsəlmanlar!) Gərək aranızda (insanları) yaxşılığa çağıran və əmr-be-məruf və nəhy-əz-münkər edən bir dəstə camaat olsun! Həqiqətən bunlar nicat tapmış şəxslərdir". ("Ali-İmran" surəsi, ayə 104)

Rəsulallah (s) belə buyurub: "Əgər bir şəxs əmr-be-məruf və nəhy-əz-münkər edərsə, onda o, Allahın, Onun Rəsulunun (s) və Kitabının yer üzərində xəlifəsidir". ("Məcməul-bəyan", 2-ci cild, səh. 807)

İmam Hüseyn (ə) Mühəmməd Hənəfiyyəyə vəsiyyətində belə buyurdu: «Mən rahatçılıq, xoş gün keçirtmək, zülm və fəsad etmək məqsədilə qiyam etmirəm. Əksinə, yalnız və yalnız cəddimin ümmətini islah etmək və nicat vermək üçün qiyam edirəm. İstəyirəm əmr-be-məruf və nəhy-əz-münkər edim, cəddimin və atamın getdiyi yol ilə gedim».

"Həqiqətən Allahın Rəsulu (s) sizin üçün gözəl bir örnək və nümunədir". ("Əhzab" surəsi, ayə 21)

İmam Hüseyn (ə) buyurmuşdur: "Mənim məktəbim sizin üçün bir ülgüdür". ("Mosuətu kəlimati-l-imamil Hüseyn (ə)", səh. 361)

İmam Hüseyn (ə) buyurubdur: "Mənim yolumda və əqidəmdə olan şəxs heç zaman Yezid və Yezid kimilərdən beyət etməz". ("Məqtəli Xarəzmi", səh. 184)

"Onlar Allahın nurunu (İslam dinini) öz ağızları (öz iftiraları və şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır". ("Səf" surəsi, ayə 8)

Allahın Rəsulu (s) buyurub: "Mən Hüseyndən, Hüseyn də məndəndir". ("Bihar", 43-cü cild, səh. 295)

Allahın Rəsulu (s) buyurub: "... O, (Hüseyn (ə)) behişt cavanlarının ağası və ümmətin nicat qapısıdır. Onun əmri – mənim əmrimdir, Ona itaət etmək – mənə itaət etməkdir. Hər kəs onun yolu ilə getsə - məndəndir, hər kəs ona qarşı çıxıb üsyan etsə - məndən deyil". ("Əmali-Səduq" səh. 101)

Allahın Rəsulu (s) buyurub: "Hüseynin (ə) vasitəsi ilə insanlar (onun yolu ilə gedənlər) xoşbəxt və (ona qarşı çıxanlar) bədbəxt olurlar. Agah olun və bilin ki, həqiqətən Hüseyn – cənnət qapılarından biridir, hər kəs onunla düşmənçilik etsə, Allah cənnətin ətrini ona haram edər". ("Miətu mənqəbə", (İbni Şazan), səh. 47)

"İzzət yalnız Allaha, Onun Peyğəmbərinə (s) və möminlərə məxsusdur". ("Munafiqun" surəsi, ayə 8)

Allahın Rəsulu (s) buyurubdur: "Qeyrət – imandandır". ("Mən la yəhzuruhul-fəqih", cild 3, səh. 444)

"Həqiqətən Allah Təala Öz bəndələrindən qeyrətlisini çox istəyir". ("Mizanul-hikmət", cild 7, səh. 357)

Düşmən qoşunundan bəzisi İmam Hüseynin (ə) şəhid olmasını güman edib xeymələrə hücum etmək istədikdə İmam (ə) fəryad edib buyurdu: "Əgər dininiz yoxdursa və Qiyamətdən qorxmursunuzsa, heç olmasa dünyada qeyrətiniz olsun". ("Bihar", cild 45, səh. 49)

Aşura günü İmam Hüseyn (ə) düşmən qarşısında şücaətlə belə buyurdu: "Yox! And olsun Allaha! Nə (zilləti qəbul edib) zəlillər kimi sizə təslim olaram, nə də qullar kimi qarşınızdan qaçaram". ("Əl-irşad", səh. 235)

Aşura günü İmam Hüseyn (ə) buyurdu: "Agah olun, bilin ki bu zinazadə oğlu zinazadə (ibni Ziyad) iki şeyin arasında saxlayıb: ya zəlilcəsinə beyət edim, ya da qılıncla doğranım. Heyhat-heyhat, zillət bizdən çox-çox uzaqdır!" ("Əl-Lühuf", səh. 97)

İmam Hüseyn (ə) buyurubdur: "İzzətlə ölmək zillətlə yaşamaqdan yaxşıdır".
("Mənaqibi İbni Şəhri Aşub", cild 4, səh. 68)

"Həqiqətən mən ölümü səadət və zalımlarla yaşamağı alçaqlıqdan başqa bir şey bilmirəm". ("Mənaqibi İbni Şəhri Aşub", cild 4, səh. 68)

İmam Hüseyn (ə) buyurub: "Mənim şənim, ölümdən qorxan adamın şəni kimi deyil".
("Əhqaqul-həqq", cild 11, səh. 601)

Allahın Rəsulu (s) buyurubdur: "Əgər bir şəxs eşidə ki, bir nəfər fəryad edir: "Ey müsəlmanlar, yetişin mənim dadıma!". Əgər ona cavab verməzsə, müsəlman deyildir". ("Bihar", cild 71, səh. 339)

İmam Hüseyn (ə) buyurub: «Əgər bir şəxs bizim fəryadımızı eşidə, ya bizim qaraltımızı görə, amma bizə kömək etməyə və fəryadımıza yetişməyə - Allahın haqqı vardır ki, onu üzü üstə cəhənnəmə atsın". ("Mosuətu-kəlimatil-İmamil-Hüseyn (ə)", səh. 369)

Aşura günü İmam Hüseyn (ə) buyurub: "Mənə kömək edəcək bir köməkçi varmı? Mənə yardım edəcək bir yardımçı varmı? Peyğəmbərin (s) itrətini (Əhli-Beytini) müdafiə edəcək bir müdafiəçi varmı?" ("Bihar", 45-ci cild, səh. 46)

"Sevdiyiniz şeylərdən (Allah yolunda) ehsan etməyincə həqiqətə və yaxşılığa çatmazsınız". ("Ali-İmran" surəsi, ayə 92)

Aşura günü İmam Hüseyn (ə) buyurub: "Pərvərdigara, Sənin qəza-qədərinə razıyam və Sənin əmrinə təslliməm. Səndən başqa məbud yoxdur, ey fəryad edənlərin fəryadına yetən".

"Sonra Adəm öz Pərvərdigarından müəyyən kəlmələri öyrəndi". ("Bəqərə" surəsi, ayə 37)

Müfəssirlərdən bəziləri bu ayəni təfsir edərkən, belə bir rəvayət nəql edirlər ki, Həzrət Adəm (ə) ərşdə həmin kəlmələri gördü, Həzrət Cəbrail (ə) də nazil olub, bu kəlmələri ona öyrətdi: "Ya həmidu bihəqqi Muhəmməd, ya ali bihəqqi Əli, ya fatiru bihəqqi Fatimə, ya muhsinu bihəqqil Həsən, ya qədiməl ihsan bihəqqil Hüseyn".

Sonra Həzrət Adəm (ə) Həzrət Cəbraildən (ə) soruşdu ki, niyə axırıncı ada yetişdikdə qəmgin oluram? Həzrət Cəbrail (ə) İmam Hüseynin (ə) Kərbəladakı müsibətini ona xəbər verdi. ("Nəfəsül-məhmum", səh. 22)

"Məryəm" surəsinin müqəttəə hərfləri barəsində nəql olunubdur ki, "kaf" Kərbəlaya, "ha" həlakətə, "ya" Yəzidə, "əyn" Hüseynin ətəşinə (susuzluğuna), "sad" Hüseyn ibn Əlinin (ə) səbrinə işarədir.

**Kazım Əlibəyli**






# XEYİR QÜVVƏNİN ŞƏR QÜVVƏYƏ QARŞI MÜBARİZƏSİ

## müasir psixologiyanın çiçəklənməsi üçün yeganə çıxış yoludur

**Bildiyimiz kimi İmam Hüseynin (ə) qiyamının ən əsas səbəbləri islamı Yezid kimi zalimin şərrindən xilas etmək, Peyğəmbərin (s) gətirdiyi həqiqi islamı insanlara başa salmaq, zalimin zülmünə qarşı mübarizə aparmaq, İslam ümmətini islah etmək, onları yaxşılığa dəvət edib pis işlərdən çəkindirmək, cəhalət ilə mübarizə aparmaq, ədaləti bərpa etmək və iki üzlü insanları ictimaiyyətə tanıtdırmaq olub.**

*İmam Hüseynin (ə) qiyamının səbəblərini mütaliə edəndə görürük ki, həmin hədəflərin batinində insanlar üçün çox saylı və dərin məzmunlu ibrət dərsləri var. Eləcə də görürük ki, imamın (ə) qiyamı yalnız həqiqi islamın saxta islamla, eləcə də zamanın İmamının (ə) fasiq və zalim xəlifə olan Yəzidlə mübarizəsindən ibarət deyil.*

*İmam Hüseynin (ə) qiyamının hədəfləri içərisində, xeyir qüvvənin şər qüvvəyə qarşı şücaətlə və başı uca şəkildə mübarizə etdiyini görmək olar.*

*Kərbəla hadisəsindəki xeyir qüvvənin şər qüvvəyə qarşı dayanıb, Allaha arxalanaraq, özünə güvənib mübarizə etməsi, insanlar üçün qiyamət gününə qədər ən gözəl ibrət dərslərindən biridir.*

*İmam Hüseynin (ə) kənarında sona qədər dayanıb, şər qüvvələr ilə mübarizə aparan silahdaşları, bütün haqsevər insanlar üçün ən gözəl nümunələrdir.*

*Şər qüvvəyə qarşı çıxmaq, onunla mübarizə aparmaq, çox əhəmiyyətli, eyni zamanda da çətin bir işdir. Bunu, kərbəla hadisəsində imamın (ə) ətrafında olan insanların sayına diqqət yetirməklə başa düşmək olar.*

*Amma az da olsa tarix boyu batilə qarşı mübarizə aparan insanlar olmuşdur. Bildiyimiz kimi kərbəla hadisəsi zamanı Yezidin qoşununda olan Hürr adlı bir şəxs olub. Hürr haqsevər insan olduğu üçün Yezidin fasiq və zalim olduğunu başa düşən kimi onun yanından ayrılıb, etdiyi yanlış əmələ görə tövbə edib, İmam Hüseynə (ə) qoşulur. O, Yezidin qoşununa qarşı vuruşaraq batil qarşısında dayanır və kərbəlada ilk şəhid də elə Hürr olur.*

*İmam Hüseyn (ə) Aşura günündə "Mənə kömək edəcək bir şəxs yoxdurmu" deyə səslənərək gələcək nəsillər üçün haqqın kənarında dayanaraq, şər ilə mübarizə aparmağın əhəmiyyətli və vacib olduğunu çatdırmağa çalışırdı. İmam (ə) bu cümləni şəhid olacağına az qalmış bir vaxtda buyurmuşdu və artıq Yezidin qoşunu içərisində ona kömək edəcək kimsənin olmadığını çox yaxşı bilirdi. Əslində o Həzrət (ə) insanlardan özü üçün yox, əksinə gələcəkdəki haqq olan və şər qüvvəyə qarşı mübarizə aparan zamanənin imamı üçün kömək istəyirdi. Yəni imam Hüseyn (ə) " Mənə kömək edəcək bir şəxs yoxdurmu" cümləsini işlətməklə, insanlara canlı mesaj çatdırmaq istəyirdi ki, hər bir dövrdə haqqın yanında olsun və daim şər qüvvələr ilə mübarizə aparsınlar.*

*Peyğəmbər (s) və İmamların (ə) yaşam tərzinə baxanda başa düşürük ki, onlar qiyamətə qədər yaşayacaq bütün insanlar üçün nümunə olublar. Onların hər bir addımı, etdikləri hər bir işlər, hər kəs üçün ibrət dərsi olub. Ona görə də Kərbəla hadisəsindən götürəcəyimiz ən mühüm ibrət dərslərindən biri, şər qüvvələr qarşısında dayanıb sona qədər mübarizə aparmaq olmalıdır.*

*İmam Əli (ə) şər qüvvə ilə mübarizə aparmağın ən sadə yolunu bizə başa salmaq üçün buyurur: Yaxşı insanlar ilə dostluq et ki, sən də onlar kimi olasan. Pis insan olmamaq üçün isə pis insanlardan uzaq ol.*

**Hacı Elçin Əliyev**

# KƏRBƏLA VAQİƏSİNİN DÜZGÜN YAŞADILMASI

**Hüseyn ibn Əliyə (ə) ağlamaq lazımdır, amma Aşura günü onun mübarək bədəninə dəyən qılınc və nizələrə görə deyil, bu hadisələrə qoşulan yalanlara görə ağlamaq lazımdır. (Hacı Mirzə Hüseyn Nuri)**

Müsəlman dünyasının İslamın zülmlə mübarizə fəlsəfəsini yaşatmaq məqsədilə Kərbəla hadisəsini yad edib matəm saxladığı Məhərrəm ayını yaşayırıq. Bu qiyam İslam ideologiyasının demək olar ki, bütün çalarlarının praktik təzahürü kimi tarixin digər üsyanlarından fərqləndirici xüsusiyyətə malikdir. Bu baxımdan onun düzgün mənimsənilməsi və yaşadılması müsəlmanların - əsas araşdırma mövzularından biri olmalıdır. Kərbəla qəhrəmanları bizə həyatın ən ekstremal anları üçün müxtəlif statuslarda olan kamil insan modelləri təqdim edirlər. Onların şəxsiyyətlərinin təhlili, ümumilikdə Aşura hadisəsinin mahiyyətinin araşdırılması bu baxımdan böyük əhəmiyyət daşıyır. Bu hadisənin hər il yad edilməsi, Aşura faciəsinin kədərinin canlı saxlanılmasının məqsədlərindən biri də elə budur. Kiminsə faciəsini hiss etmək, onunla eyni hissləri paylaşmağa çalışmaq - insanı həmin şəxsə mənən yaxınlaşdırır. Kərbəla şəhidlərinə matəm saxlayaraq onların içində olduqları ruhi ab-havanı hiss etməyə çalışmaları Hüseyn (ə) əzadarlarının bu kamillik mücəssəmələri ilə həmahənglik əldə etmələrinə, ideal qəbul etdikləri düşüncə tərzi və duyğularını mənimsəmələrinə xidmət edir. Kamilliyə doğru istiqamətlənmək istədikdə, hədəfimizlə eyni kədəri paylaşmağa çalışmaq ona yaxınlaşmağımızı təmin edir. Buna görə də istiqamətləndiyimiz hədəfləri düzgün tanımaq onların şəxsiyyətlərini olduğu kimi dərk etmək çox vacibdir.

Amma 14 əsrlik zaman axınından keçmiş bir hadisəsinin cəmiyyət tərəfindən düzgün yaşadılması heç də həmişə mümkün olmayıb. Fərqli cəmiyyətlərin ayrı-ayrı fərdlərinin düşüncə və gözləntilərinin müxtəlif olması Aşura hadisəsinin mahiyyətinin mənimsənilməsinə təsirsiz ötüşməyib. Buna əsas səbəblərdən biri insanların beynində qəhrəmanlıq, şücaət, izzət və s. bu kimi orada təzahür etmiş məfhumların səhv formalaşması olmuşdur. Məsələn, kiminsə gözündə qəhrəman




qol gücünə 500 nəfərin öhdəsindən gələ bilən biridirsə, ona qəhrəman kimi təqdim olunan insanı da bu cür təsəvvür edəcək. Bu proses Kərbəla iştirakçılarının insanların təsəvvüründə yaratdığı obrazlarında da özünü göstərib. Hərə Aşura iştirakçılarını beynində onların bu hadisədəki rollarına uyğun qəlibə yerləşdirərək, o cür təsəvvür edir.

Öz ideallarımızı Kərbəla qəhrəmanlarını örnək götürərək formalaşdırmalı olduğumuz halda, onları səhv şəkilləndirilmiş ideallara uyğunlaşdırırıq. Əza saxlayarkən onların yaşadığı duyğuların diqtəsi ilə ağlamaqdansa, faciələrini öz kədərlərimizlə müqayisə edib göz yaşı axıdırıq. Faciənin qurbanları ilə onların yerinə özümüzü və yaxınlarımızı qoyub ancaq müsibətin ağırlığına kədərlənmək səviyyəsində həmrəng oluruq. Halbuki matəmdə məqsəd onların bizi dəyişməsi, bizim onlara bənzəməyimiz, bizim onların təfəkkürü ilə formalaşmağımızdır. İmam Hüseynin (ə) qiyamının, uğrunda mübarizə apardığı dəyərlərin mahiyyətini unudub, sırf üzləşdikləri fiziki və doğmalarının ölümünü görmək səviyyəsində mənəvi çətinliklərinə kədərlənirik. Onlar bizim düşüncə üfüqlərimizi genişləndirməli olduqları halda, biz onların faciəsini öz təfəkkür sərhədlərimizə salaraq dərk edirik. Bəlkə də elə buna görə məqsədi zülmə qarşı mövqesiz olmamağı aşılamaq olan Hüseyn (ə) əzadarlıqlarının günümüzdəki hadisələrə olan münasibətimizi dəyişməyə gücü çatmır.

Bu müsibəti camaata çatdıranların bəziləri də insanların marağını təmin etməkdən ötrü bununla bağlı rəvayətləri onların beynində əslində səhv formalaşmış standartlara uyğun nəql etməyə çalışmışlar. Zamanla nəql olunan hadisələr davamlı olaraq iddia edilən bütün yalanların aqibətini yaşamış və mənbəyini itirərək həqiqətə çevrilmişdir. Uzun zaman səfərinə çıxmış bütün rəvayətlərin məruz qaldığı bu kimi təhriflər çox böyük əqidə və ictimai əhəmiyyətli bu tarixi hadisədən də yan keçməyib.

İslamın bizə təqdim etdiyi kamil insan obrazlarını təhrif etmiş, öz təfəkkürümüzə görə formalaşdırmış, dəyişdirmiş və beləliklə hədəfimiz olan ideal insan modellərini itirmişik. Bu isə müsəlmanlar üçün Aşura müsibəti qədər faciəvidir. Aşura qəhrəmanlarının qiyamı dövrlərində məhv olmağa doğru gedən müsəlman obrazını bərpa etmək və qiyamətə kimi yaşamasını təmin etmək üçün olub. Biz əza saxlayarkən təqdim etdikləri kamil insan modellərini təhrif etməklə, özümüz də hiss etmədən onların mübarizə hədəfinə çevrilir, qiyam etdikləri sistemin tərkibi oluruq. Onlarla həmdərd olduğumuzu düşünərkən, dərdlərinin səbəbinə çevrilirik. Bu mənada ustadın əvvəldə də qeyd edilmiş fikirləri anlaşılandır: "Hüseyn ibn Əliyə (ə) ağlamaq lazımdır, amma Aşura günü onun mübarək bədəninə dəyən qılınc və nizələrə görə deyil, bu hadisələrə qoşulan yalanlara görə ağlamaq lazımdır".

Kərbəla müsibətini olduğu kimi, şişirtmə və təhriflərdən təmizlənmiş şəkildə insanlara çatdırmaq, bununla belə onların marağını təmin edə bilmək üçün insanları səhv formalaşmış qəliblərdən azad etmək lazımdır. Bunun özü üçün də elə Aşura fəlsəfəsini, orada baş verənlərin məntiqi izahını və hikmətini açıqlamaq, Kərbəla qəhrəmanlarını düzgün tanıtdırmaq və onlara bənzəməyi məqsədə çevirməliyk.

Aynur Əhədova

# HƏZRƏT ƏBƏLFƏZL ABBAS (Ə)

Həzrət Abbas (ə) xoşxasiyyətli, xoş simalı və gözəl bir insan idi. Ona görə də onun ləqəbi "Qəməri-bəni-Haşim" - "Bəni Haşimin Ayı" idi Uca qamətli, güclü qollara sahib idi. Atı suvar olanda o həzrətin dizi atın boğazına çatardı. Şücaət və gözəl sifətlərdə Əmirəlmömininin (ə) övladları arasında öncüllərdən idi.

İmam Səccad (ə) Həzrət Abbas (ə) haqqında belə buyurur: "Həzrət Abbas (ə) təlim görməmiş alimdir. Çünki o, ilahi elmin mənbəyi, Həzrəti Peyğəmbərin Varisi (ə) və Vəlisi Həzrət Əlinin (ə), həmçinin behişt cavanlarının ağaları olan Həsənin (ə) və Hüseynin (ə) elmindən faydalanmışdır".

Həzrət Əbəlfəzlin (ə) məqamı və fəziləti barəsində sadəcə bir məsələni qeyd etmək kifayətdir ki, Həzrət Abbasın (ə) hansı məqama sahib olduğunu görək. Belə ki, məsum şəxsə yalnız məsum olan bir şəxs qüsl verib namaz qıla bilər. Amma İmam Hüseyn (ə) İmam Həsənə (ə) qüsl verərkən, Həzrət Abbas (ə) burada iştirak etmişdir. Həzrət Əbəlfəz (ə) ömrünü qardaşı İmam Hüseyn (ə) yanında keçirmiş və daima ona sadiq olmuş, atasına verdiyi vədə əməl etmişdir.

**Əbəlfəz ağanın (ə) Kərbəladakı qəhrəmanlığı barədə:**

"Məhərrəm ayının 7-də İmam Hüseynin (ə) ordusunu mühasirəyə alaraq suyu onların üzünə bağladılar. Əbəlfəz ağa (ə) su gətirmək üçün İmam Hüseyndən (ə) icazə alaraq, 30 atlı, 20 piyada və 20 su tuluğu ilə Fərat çayına tərəf yollandı. Çaya yetişdikdə suyun qarşısını kəsən düşmən qoşunu ilə rastlaşdılar: Bir dəstə onlarla vuruşduğu halda, digər dəstə tuluqları su ilə doldurub oranı tərk etdilər. Döyüşçülər arasında öz sücaəti ilə seçilən Həzrət Abbas (ə) düşmənin gözünü elə qorxutmuşdur ki, heç kim ona yaxınlaşıb döyüşmək istəmirdi.

Aşura gecəsi İmam Hüseyn (ə) xeyməgahında ibadətlə məşğul olarkən, Həzrət Abbas (ə) onu mühafizə etmiş və daim Əhli-Beytin (ə) xidmətində durmuşdur. O gecə Həzrət Əbəlfəzl (ə) qardaşlarına xitab edərkən buyurdu: "Bu, gün elə bir gündür ki, gərək cənnəti satın alaq və canımızı İmam Hüseynə (ə) fəda edək. Bunu ona görə etmirik ki, biz onun qardaşlarıyıq, bunu ona görə edirik ki, İmam Hüseyn (ə) - Allahın yer üzündəki, höccətidir". Bunu eşidən İmam Hüseyn (ə) buyurdu: "Ey qardaş, aləmlərin Rəbbi sənə əcr versin".

Aşura günü haqqın bayraqdarı olan Əbəlfəzl (ə) İmamın (ə) göstərişi ilə meydana gedən son şəxs oldu. Bütün səhabələr meydana getdiyi halda, Həzrət Əbəlfəzl (ə) İmamın əmrini gözləyirdi. Sonunda o, İmam Hüseyndən (ə) icazə alaraq su gətirmək üçün Fərata yollandı. Zalımlarla üzləşən Həzrət Əbəfəzl (ə), ilk növbədə onları haqqa tərəf səslədi, lakin onlar buna etina etməyərək, öz zülmlərindən əl çəkmədilər. Həzrət Əbəlfəzl (ə) tuluğu su ilə doldurub qayıdarkən, zalımlar onun (ə) sağ əlini kəsdilər. Bir müddət sol əlilə vuruşduqdan sonra, sol əlini kəsdilər. Ancaq Kərbəla Ələmdarı (ə) bayrağın yerə düşməsinə imkan verməyərək onu sinəsinə sıxaraq saxladı. Hər tərəfdən o Həzrəti (ə) ox və nizə ilə yaraladılar. Həzrət (ə) fəryad edərək buyurdu: "Məndən sənə salam olsun, ey Əba Əbdillah". Bunu eşidən İmam Hüseyn (ə) onun yanına gələrək, Həzrətin (ə) mübarək başını qucaqlayaraq buyurdu: "İndi belim sındı, çarəm azaldı və düşmənin dili açıldı".

Həzrət Əbəlfəzl (ə) Kərbəlada İmam Hüseynin (ə) hərəmi yaxınlığında dəfn olunub. O Həzrəti (ə) vasitə bilib, sidq ürəklə Allah Təaladan istənilən hacətlər tezliklə qəbul olar. Elə buna görə də o Həzrəti (ə) "Hacətlər qapısı" adlandırırlar.

Allahdan istəyimiz budur ki, bizləri də Həzrət Əbəlfəzli Abbasın (ə) yolunu gedənlər kimi Peyğəmbər (s) və Əhli-Beytin (ə) davamçıları kimi, sabit və sadiq qullarından qərar versin. Amin.

**Yusifova Yetər**

# “KƏRBƏLA” şəhidləri

**Kərbəla hadisəsinə Aşura gününədək baş verən hadisələrə diqqət etdikdə görürsən ki, üz-üzə dayanan haqq keşikçiləri ilə batil qoşunları sanki MÜHÜM TAPŞIRIĞIN icrasındadırlar.**



***Böyük islam alimi Muhəmməd Təqi Cəfəri “Aşuranın təhlili” kitabında yazır: İmam Hüseyn (ə) hər bir cəhətdən – nəsəb, dindarlıq, təqva, əxlaq və ədalət baxımından insaniyyətin ən yüksək zirvəsində idi. Məhz İmam Hüseyndə (ə) mövcud olan bu kimi səciyyələri, insani keyfiyyətləri nəzərə alaraq, hətta Muaviyə belə, öz oğluna belə tövsiyə etmişdi: “Nəbadə, Hüseynlə qarşı-qarşıya durasan!... Hüseyndə Əlinin qanı var. Sən Hüseyni ələ ala bilməzsən, əgər onunla mübarizəyə başlasan, Bəni-Üməyyənin adını ümumiyyətlə tarixdən siləcəksən”.***

Bəli bu haqq qəsbkarı məlun Müaviyənin, şərabxor, zinakar, bütün rəzil sifətləri özündə cəm etmiş oğlu Yezidə tapşırığı idi. Məlun Yezid isə bu hiyləgər tapşırığın nə demək olduğunu anlaya bilmədi. Onda hər rəzil sifət var idisə də, atasının tülkü hiyləgərliyi yox idi. Atasının qəsb etdiyi hakimiyyəti özününkü bilən Yezid bu dəfə özü “tapşırıqlar” verirdi.

Yezidin belə bir tapşırığından İmam Hüseyn (ə) hələ Məkkədə olarkən hali olmuşdu. Əmr ibni Səid Yeziddən aldığı tapşırığı: “İmamı ya tutmaq, ya da qətlə yetirmək” həyata keçirmək üçün Məkkəyə daxil olmuş idi.

... Ümumiyyətlə Kərbəla hadisəsinə Aşura gününədək baş verən hadisələrə diqqət etdikdə görürsən ki, üz-üzə dayanan haqq keşikçiləri ilə batil qoşunları sanki MÜHÜM TAPŞIRIĞIN icrasındadırlar.

... İmam Hüseyn (ə) zalım nökəri Əmr ibni Səid ibni Asın niyyətindən agah olduqdan sonra möhtərəm evin hörmətin saxlamaq üçün Məkkədən çıxmağı qərar verir. Qardaşı Muhəmməd ibni Hənəfiyyənin: “Bəs belə tələsik Məkkədən çıxmağına nə səbəb olub” sualına İmam belə cavab verir:. . . Peyğəmbər (s) yuxuda mənim yanıma gəldi və buyurdu ki, “Hüseyn, Məkkədən çıx”...

İmam Hüseyn (ə) bu addımı atıb Məkkədən çıxarkən əziz babası islam Peyğəmbərinin buyurduğunu, tapşırığını icra edirdi. İmam hətta səfərə çıxdığı bu yolun nə kimi nəticələnəcəyini bilirdi. Və qardaşı Muhəmməd Hənəfiyyəyə bildirdi: “Peyğəmbər yuxuma gəlib buyurdu ki, ... Allah səni onun yolunda qətlə yetirildiyini görmək istəyir».

İslamı aradan aparmaq istəyənlərin müaviyələrin, yezidlərin gözlərinə sanki bir ox batırırdı İmamın mübarək varlığı.

Muhəmməd ibni Hənəfiyyə İmamından soruşur ki, Ağa əgər şəhid olmaq məqsədilə gedirsənsə, bəs xanimanını niyə özünlə aparırsan?

İmam cavabında buyurur: «Allah onları əsir görmək istəyir».

Bəli, İmam Hüseyn (ə) bu səfərinin hər addımında bəyan edir ki, bunu Allah istəyib və Peyğəmbəri buyurub. İmam bununla bütün bəşərə bir dərs verir. Öyrədir ki, bəndə Rəbbinin buyruğu ilə Peyğəmbərinin tapşırığı ilə SƏADƏTLİ HƏYAT əldə edir. İmamın bu ZİLLƏTSİZ HƏYATdərsindən faydalananlar bütün dünyada KƏRBƏLA ŞƏHİDLƏRİ adı ilə tanınır və tanınacaq. O Kərbəla şəhidləri ki, susuz səhralarda qanları ilə mübarək cisimlərinə qüsl verdilər. Döyüş paltarlarını kəfən qərar verdilər.

Bəşər yaranandan bu günə qədər haqlı-haqsız qanlar axıdılır. Ancaq hər fədakar qanına qəltan olan Kərbəla şəhidi olmayıb. Görən bəs bunun səbəbi nədədir?

Səbəb isə çox aydındır. 72 şəhidin hər biri döyüşdən əvvəl İmamının yanına gəlib döyüş üçün tapşırıq istəyir. Öncə ibn Ziyad ordusunun böyük sərkərdələrindən olan Hürr döyüşdən əvvəl bir anın içində qərar verir ki, məzlumlar tərəfində, zalımlara qarşı döyüşəcək. Və bu an Hürr atını İmamın düşərgəsinə tərəf sürür. İmam Hüseynin (ə) qarşısında atdan

enən Hürr İmamından (ə) onun tərəfində vuruşmaq üçün icazə istəyir və döyüş üçün tapşırıq alır...

Bu qanlı səhnədə yeniyetmə Qasim:

«Ölüm mənə baldan da şirindir» deməklə İmamından icazə istəyir və buyruq alır. Necə də ibrətamiz bir səhnə var burada, İlahi. İmamın buyruğunu yerinə yetirərkən, İmamın tapşırığını yerinə yetirərkən ölüm də bal dadır...

Qələm qollarına göz yaşı axıtdığımız Əbülfəzl Abbas imamın buyruğunu Necə Yerinə Yetirmək dərsini öyrədir aşiqlərinə.

... Ağam Kərbəlada BAYRAQDAR idi. İmam Hüseyn (ə) onu ələmdar təyin etmişdir. Lənətlik Yezid ordusu Əbülfəzl Abbası üzük qaşı kimi əhatə edir və xain zərbə... Bir qol Ələmdardan ayrılır. Ağam isə tək əli ilə bayrağı köksünə sıxır. Kəsilən qolda ağrımı yox? Niyə yarasını yox, ağam bayrağı qucaqlayır? Çünki buyruq Hüseyndəndir (ə), tapşırıq Hüseyndəndir (ə).

Lap kiçik yaşlarımdan Hüseyn (ə) əzadarlığı məclislərində bu sadaladığım səhnələri Seyid Zeynal rövzə və mərsiyələrində danışardı. Biz də «Hüseyn (ə) vay» deyə ağlardıq. Və bu ağlamaq daxilimdə o pak hissləri qoymuşdu. «... Kaş ki, Hüseynim (ə) mənə də bir buyruq verəydi".

İmam Hüseynin (ə) bu qiyamı bir çox alimlər tərəfindən araşdırılmış və təhlili yazılar yazılmışdır. Bu yazılardan biri Şəhid Mütəhhərinin "İmam Hüseynin (ə) qiyamına analitik bir baxış" kitabıdır. İmam Hüseyn (ə) qiyamını əmr-be-məruf, nəhy-əz-münkər müstəvisində təhlil edərkən dövrümüzün də bütün islami dərdlərini qabardaraq sonda belə bir sual qoyur. "Görəsən bu gün İmam Hüseyn (ə) nə buyurardı?»

Sual sanki Hüseyn (ə) əzadarlarına, Mehdi (ə.f.) intizarında olanlara ünvanlanır. Və Şəhid Mütəhhəri sualın cavabında buyurur: «Şübhəsiz o Həzrət (ə) buyurardı ki, sizin şüarınız öz zəmanənizin şimrini tanıyın olmalıdır». Allah Təala bizlərə həqiqi Hüseyn (ə) əzadarı olmağı nəsib etsin!

**Təbiət Hüseynov**

# ÇƏK ADINI, SÖYLƏ ŞÜAR: YA HÜSEYN (Ə)!

**Çək adını, söylə şüar: Ya Hüseyn (ə)!**
**Eylə bununla iftixar: Ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Möminlərin rəhbərisən, ya Hüseyn (ə)!**
**Fatimənin gohərisən, ya Hüseyn (ə)!**
**Aşiqlərin sərvərisən, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Çək adını, söylə şüar: Ya Hüseyn (ə)!**
**Eylə bununla iftixar: Ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Şahi-şəhidanına olsun salam!**
**Qibleyi-imanına olsun salam!**
**Əsirlər karvanına olsun salam!**
**Ləbbeykə, ya Zeynəb!**
**Ləbbeykə, ya Zeynəb!**

**Çək adını, söylə şüar: Ya Hüseyn (ə)!**
**Eylə bununla iftixar: Ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Nuri Ələmdaruna ollam fəda,**
**Ləbteşnə qurbanına ollam fəda,**
**Əkbəri xubanına ollam fəda,**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Çək adını, söylə şüar: Ya Hüseyn (ə)!**
**Eylə bununla iftixar: Ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Zeynəbə qəmxar olanım, hardasan?**
**Əhdə vəfadar olanım, hardasan?**
**Təşnələrə yar olanım, hardasan?**
**Ləbbeykə, ya Abbas!**
**Ləbbeykə, ya Abbas!**

**Çək adını, söylə şüar: Ya Hüseyn (ə)!**
**Eylə bununla iftixar: Ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**
**Ləbbeykə, ya Hüseyn (ə)!**

**Rövşən Fərhadoğlu**






# ŞƏHİDƏ NİYƏ AĞLAYIRIQ

***Gəlin özümüz özümüzə sual verək. Biz niyə şəhidə ağlayırıq? Bizi hansı hisslər məcbur edir ki, ağlayır, göz yaşı tökürük? Burada hər kəsin bir neçə müxtəlif cavabı var. Amma gəlin həqiqəti axtaraq. Görək Uca Yaradanımız, Peyğəmbərimiz (s), pak məsum İmamlarımız (ə), övliyalarımız, alimlərimiz bu barədə nə buyurmuşlar?***

İslamda özünəməxsus müqəddəsliyi olan bir kəlmə vardır. İslami ifadə və terminlərlə tanış olan adam, bu sözün məxsus islami inam çərçivəsində işlədən, onun işıq dairəsi ilə əhatə olduğunu duyacaqdır. O da şəhid kəlməsidir. Bu kəlmə bütün ənənələrdə ülviyyət və əzəmətlə birgədir. İslami baxımından öz dəyərləri ilə şəhid tanınan hər adam şəhadət dərəcə və məqamına çatarsa, yəni doğurdan da islamın üstün ideyaları uğrunda, bu dinin həqiqi dəyərlərini bərpa etmək məqsədilə ölərsə, inasanın yüksəliş hərəkətində çata bilcək ən yüksək mərtəbəyə və mənsəbə çatır. Quranın şəhidlər haqqında olan baxşından, eləcə də bu sahədə olan islami rəvayətlər və hədislər baxımından islamın məntiqini öyrənib bu kəlmənin müsəlmanların ənənəsində olan müqəddəsliyinin səbəbini dərk edə bilərik.

İslamın ilkin çağlarında, əziz Peyğəmbərimizn (s) yaşadığı dövrlərdə olan şəhidlərin arasında ən çox parlayan "Seyyidüş-şühəda" – "Şəhidlərin ağası" ləqəbini alan Həmzə ibn Əbdülmüttəlib cənabları - əziz Peyğəmbərimizin (s) Ühüddə şəhid olan əziz əmisi idi. Mədinənin ziyarətinə nail olanlar yəqin ki, Ühüddə də olub, cənab Həmzənin məzarını ziyarət etmişlər.

Həmzə, Məkkədən-Mədinəyə köçərkən, tək idi və kimsəsi yox idi. Əziz Peyğəmbərimiz (s), Ühüddən Mədinəyə qayıdarkən cənab Həmzənin evindən başqa, bütün şəhidlərin evində ağlamaq səsinin ucalmasını gördü. Həzrət təkcə bir cümlə buyurdu: "Bütün şəhidlərin ağlayanı vardır, Həmzənin isə ağlayanı yoxdur". Bu cümləni buyurduqda, səhabələr evlərinə qayıdıb, dedilər: "Rəsulallah: "Həmzənin ağlayanı yoxdur", – deyə buyurdu". Öz uşaqlarına, ərlərinə, atalarına və qardaşlarına ağlayan qadınlar, Peyğəmbərin hörmətinə və cənab Həmzə ibn Əbdül Müttəlibin ehtiramına Həmzənin evinə gəlib, ona ağladılar. Bu hadisədən sonra ənənə olaraq bir şəhidə ağlamaq istəyən, öncə cənab Həmzənin evinə gedib ona ağlayırdı. Və bu hadisə göstərir ki, şəhid qəhrəmanlıq yaradıb və şəhidə ağlamaq isə onun qəhrəmanlığında iştirak edib, onun ruhu ilə uyğunlaşıb, sevinci ilə şad olub dalğasında ləpələnməkdir. Aşura hadisəsindən və bütün şəhadətləri öz təsiri altına alan İmam Hüseyn (ə) şəhadətindən sonra, Seyyidüş-şühəda ləqəbi İmam Hüseynə (ə) həsr olundu. Və əlbəttə ki, cənab Həmzəyə də "Seyyidüş-şühəda" indi də deyilir.

Lakin bizim dövrümüzdə bir çox insanlar, hətta maraqlanan gənclərin bir hissəsi İmam Hüseynə(ə) ağlamaqla müxalifdirlər. Bu işi yalnış sayırlar. Və düşünürlər ki, bu iş şəhadət əmri haqqında olan yanlış düşüncə tərzindən qaynaqlanır. Bu barədə bir çox mənfi ictimai əsərlər də vardır. Bu da ağlamağa adət edən millətlərin acizlik, gerilik və inkişaf etməməklərinin amili sayılır. Digər millətlərin şəhidlərə ağlaması, kədərlənməsi haqqında danışdıqda bəzi qəribə baxışlar yada düşür. Şəhidə ağlamaq əvəzinə şad olmaq - fərdiyyətçilik görüşündən irəli gəlir. Şəhidə ağlamaq isə İslamın ictimailik görüşündən doğan həqiqətdir.Çox vaxt şəhidə ağlamağında yalnışlıqları var. Misal üçün, bəziləri İmam Hüseynə (ə) yox olmuş, məzlum, yazıq gözü ilə baxır, ölməyini isə qəhrəmanlıq və təqdirəlayiq deyil, yazıqlıq sayırlar.

Ümumiyyətlə, ağlamaq haqqında səhv edirlər ki, ağlamaq - inciklikdən və dərddən irəli gələn bir əksül-əməldir və ağlamağın özü istənilən bir şey deyil. Gülmək və ağlamaq zahirdə insanın xüsusiyyətlərindən sayılır. Lakin ağlamaq - insanın ən şiddətli duyğularını göstərir. Ağlamaq da neçə növdür. Ağlamaq həmişə kövrəlmək və həyəcanlanmaqla birgədir. Sevinc və sevgi ağlamağını hamımız tanıyırıq. İnsan ağlayərkən, onun özünəməxsus həyəcan və kövrəkliyi ilə birlikdə, özünü ağladığı məşuquna daha artıq yaxın hiss edir. Daha doğrusu, bu vəziyyətdə özünü onunla birlikdə sayır. Gülmək və şənlik daha çox özünə qapılmaq və şəxsi cəhətə malikdir. Ağlamaq isə daha artıq özündən çıxmaq, özünü unutmaq və sevgili ilə bir olma cəhətdən əhəmiyyətlidir. Gülmək - özünə dalmaq kimi olduğu üçün ehtiras kimidir, ağlamaq isə özündən çıxmaq olduğu üçün, eşq və sevgi kimidir.

**Zeynəb Aslanova**

# KƏRBƏLA MƏKTƏBİNİN 6 DƏRSİ



**Tövbənin mahiyyəti**

Yeri gəlmişkən qeyd edək ki, cəmiyyətimizdə tövbə ilə bağlı yanlış stereotiplər var. Sanki insanlar yalnız böyük günahlar, iyrənc hərəkətlər edəndə tövbə etməlidirlər. Halbuki, Quran məntiqi bizə deyir ki, möminlər özlərini tövbə məsələsindən kənarda təsəvvür etməməlidirlər. Yəni tövbə heç də yalnız namaz qılmayanlar və ya digərləri üçün deyil. Tövbəli durum həm də möminlərə aiddir. Möminlər günahdan, xətadan, yanlışlıqlardan xali deyillər. Xəta və yanlışlıqlar baş verdikdə, tövbə edərək yenidən Allaha tərəf qayıtmaq lazımdır. Tövbənin mahiyyəti – mövcud durumdan imtina və daha kamil duruma doğru təkamül etməkdir.

Əyyama hazırlaşmağın hədəflərindən biri də budur ki, biz içimizə, daxilimizə, daxilimizdəki Kərbəlalara nəzər salaq. Nəzər salaq ki, daxilimizdəki nə qədər Hüseynləri şəhid etmişik, nə qədər Əbəlfəzlərin qollarını qırmışıq, nə qədər Rüqəyyələri susuz qoymuşuq.

Əba Əbdillah (ə) və karvanı bu qədər yol qət edərək, Kərbəlaya gəlib şəhadətə yetmədilər ki, İslam sloqan olaraq, şüar olaraq qalsın. Onlar şəhid oldular ki, İslam, İslam olaraq qalsın və yaşasın.

**Kərbəla və axırəz-zaman**

Yeri gəlmişkən, Kərbəla vaqiəsi ilə axır-əz-zaman arasına bir zaman körpüsü salaq. Şəhidlər Sərvərinin (ə) dönəmindəki zühurla bağlı edilən xəbərdarlıqlara diqqət edək. Əziz Peyğəmbər (s) İmam Hüseynə (ə) zühurla bağlı xəbər vermişdir. Son İmama (ə.f) qədər bütün İmamlar (ə) eyni nur olduqları üçün, hər biri öz dövründə eyni vəzifəyə riayət etmişdir. Əba Əbdillah (ə) buyurur ki, mən Allahın Rəsulundan (ə) eşitmişəm ki, Qiyamətə 1 gün də qalsa, zühur baş verəcəkdir.

Bu, bizim dövrə xüsusilə aiddir. Bir adam həqiqi müntəzir olsa, Mövlanın (ə.f) həqiqi intizarçısı olsa, həyatın bütün əziyyətlərinə dözümlü olar, bütün əziyyətlərdən şərəflə çıxar.

Zühur dönəmi müntəzirin durumuna dair hədislərə toxunaq. Nəql olunur ki, Zəmanə Sahibinin (ə.f) öz dönəmindəki cahiliyyə, Həzrət Peyğəmbərin (s) dövründəki ilk cahiliyyədən daha qatı cahiliyyə, daha qəliz cahiliyyə olacaqdır. İkinci cahiliyyə birincidən daha mürəkkəbdir. Birinci dövrün cahiliyyəsi canlı deyildi, aradan gedən idi, amma ikinci dövrün cahiliyyəsi təşkilatlanmış, sistemli və daha əhatəli cahiliyyədir. Axirəz-zaman dövrünün cahiliyyəsinin bütləri diridir. Onların canlı nümunələri kimi dövrümüzdə İŞİD, daşnak və sionizm kimilərini göstərmək olar. İnşəallah, Allah müsəlmanlara, millətimizə bu növ cahiliyyədən də qalib çıxmağı əta eləsin.

Zühur dönəmində müntəzirin, Mövla (ə.f) xidmətçilərinin vəzifələrinə dair verilən xəbərlərə diqqət edək. Qeyd olunub ki, Zəmanə Sahibinin (ə.f) gəlişi ruhiyyəsində olanlar – vilayət ruhiyyəsində olanlardan və müstəzəflərə, zəiflədilmişlərə yardım edənlərdəndirlər.

Məhərrəm əyyamı öncəsi hazırlıqların mahiyyəti də həqiqi Fərəc intizarçılarının, həqiqi müntəzirin ruhiyyəsinə yiyələnməsinə qayıdır.

**Kərbəla vaqiəsinin strateji hədəfi**

Dünya tarixində çoxsaylı qəhrəmanlıqlar olub. Bu qəhrəmanlıqların heç biri hər il və bu cür yüz milyonlar tərəfindən yaşadılmır. Kərbəla vaqiəsi – bəşər tarixində nəhəng yer tutan vücudi hadisələrdəndir. Onların yekun nöqtəsini qoyan hadisədir. Ona görə də, əsrlərdir yaşanır. Həzrət Adəmdən (ə) başlayaraq, bir çox peyğəmbərlərlə (ə) bağlı bəşəriyyət xüsusi hadisələri xatırlayır. Bu hadisələrin hamısı insanların daxilindəki ruhiyyə ilə bağlı olan məsələlərdir. İmam Hüseynin (ə) Aşura məktəbinin bu cür yaşanmasının əsas səbəbi budur ki, bu hərəkatın ali hədəfi fövqəl dərəcədə mübarək olub və özündən əvvəlki bütün mübarək hərəkatların nöqtəsini qoyub.

Əba Əbdillahın (ə) Aşura qiyamının əsil hədəfi nə idi ki, bu qədər həmişəyaşardır bu məktəb? Aşuranın ilk və ən zəruri hədəfi – İslamın din olaraq əhyası, diri saxlanmasıdır. İslam dininin diri olaraq mövcudiyyətini sığortalamaqdır. Kərbəla məktəbini hər mənada dəyərləndirən mütəxəssislər bu fikirdədirlər ki, Aşura o fenomenlərdəndir ki, onun bir neçə

mahiyyəti, qatı, mövzusu var. Bu ən önəmli mövzulardan da biri - imtinadır. İmtina fəlsəfəsi Kərbəla məktəbinin aparıcı dərslərindəndir. Əba Əbdillah (ə) ilk dəfə Yezidə (lən) beyət etməkdən imtina etməklə, bəşəriyyətə imtina dərsi keçir.

Bəli, Aşuranın ali, əsas, strateji hədəfi – İslamın əhyası, diri saxlanılmasıdır. Bu məktəbdə hansı cəhətə, hansı hissəyə nəzər salsaq, bunu unutmamalıyıq. Bilməliyik ki, bütün baş verənlərin bir hədəfi olub – İslamı diri saxlamaq.

Eyni zamanda qeyd edək ki, Kərbəlanın ən mühüm mövzularından biri – imtinadır. İmtina – yəni pisliklərə qarşı mətin və prinsipial mövqe sərgiləmək – Kərbəla məktəbinin ikinci dərsidir. Bu gün Aşura yaşadanlar baxmalıdır ki, bu məktəbdən imtina dərsini götürə bilir, ya yox. Bir var ki, biz tarixdən danışaq, bildirək ki, Əba Əbdillah (ə) imtina etdi və



bununla da mövzu bitsin. Bir də var ki, biz bəyan edirik ki, Əba Əbdillah (ə) öz imtinası ilə bəşəriyyətə imtina dərsi keçdi.

Əba Əbdillahın (ə) imtinası əslində "Lə iləhə illəllah"ın əməli yaşantısıdır. Gərək biz baxaq ki, nəfsi istəklərimizin müqabilində, toplumun yeritdiyi ucuz, bayağı məsələlərinin müqabilində, Allaha aparmayan hər bir mövzunun müqabilində imtina edə bilirikmi? Əgər bunu düşünsək, Aşuranı günümüzdə yaşatmış olarıq.

## Yaxşıya dəvət və pisdən çəkindirmə

Əba Əbdillahın (ə) Kərbəla məktəbində pis işlərdən çəkindirmə və yaxşı işlərə dəvət missiyasına xüsusi nəzər yetirilməlidir. İmam Hüseynin (ə) Mədinədən başlayaraq Məkkəyə, oradan isə Kərbəlaya doğru gəldiyi yolda, bütün Kərbəla hadisələrinin hamısında başdan-başa pis işlərdən çəkindirmə və yaxşı işlərə dəvət görəcəyik. Həzrət İmam Hüseyn (ə), öz hərəkatının əsas qayələrindən biri kimi bunu bəyan edir. Bu, Kərbəla məktəbinin üçüncü dərsidir.

Əba Əbdillahın (ə) hərəkatının dördüncü hədəfi – ümmətin İslahı və fəsadla mübarizə idi. Ümmət bir neçə on ilə o vəziyyətə çatır ki, öz İslami kimliyini itirib. Topluma fəsad daxil olub. İndi bir zaman gəlib çatıb ki, Əba Əbdillah (ə) bu məktəbi yaratmaqla ümməti İslami baxımından sığortalayır.

Bu məktəb boyunca müşahidə etdiyimiz beşinci aparıcı xətt – İmam Hüseynin (ə) bir İlahi İmam (ə) kimi üzərinə gələn vəzifədir. Kufəlilərin məktublarından sonra Əba Əbdillahın (ə) üzərinə İlahi imamət və vilayəti əməli şəkildə yaşatmaq və İslami dəyərləri bərqərar etmək vəzifəsi gəlir. Allah onu təyin edib, İmam (ə) buna hazırdır və toplum da əgər buna can atırsa, İmamın (ə) üzərində buna doğru cəhd etmək üçün vəzifə yaranır.

### Nəsuh tövbəsi

Qayıdaq tövbə mövzusuna. Biz bir dünyada yaşayırıq ki, onun tərbiyə sistemində, təhsilində, universitetlərində, məktəblərində, teleməkanında və sairədə insanın qurtuluşunun ən mühüm amili olan tövbə adına demək olar ki, heç nə yoxdur. Aşuranın öyrətdiyi ən böyük dərs budur ki, insan büdrəyir: Quran oxuyan da, namaz qılanlar da, hətta gecələr səcdələrdən qalxmayanlar da büdrəyə bilir. Aşura bizə öyrədir ki, əgər tövbə olmasa, ən inkişaf etmiş cəmiyyət belə tənəzzülə məhkumdur. Necə ki, biz bunu Aşurada gördük: Həzrət Peyğəmbərin (s) qurduğu cəmiyyət tövbədən uzaqlaşdığı üçün, hətta öz İmamlarına (ə) qarşı çıxdılar.

Söhbət elə-belə tövbədən getmir, söhbət Nəsuh tövbəsindən gedir. Nəsuh tövbəsinin mühüm bir xüsusiyyəti də budur ki, onda bir daha günaha dönməmək prinsipi vardır. Tövbə etmək mömінin, bir müsəlmanın, bir inanc əhlinin əsas mənəvi vəzifələrindən biridir. Tövbə gərək yalnız dillə deyilməsin, içdən gəlməli, qəlbdən gəlməlidir. Sözgəlişi tövbəyə heç nə düşmür. Bəzən toplumda da tez-tez işlənir ki, "əstəğfirullah". Bu kəlməni tez-tez toplumda eşidirik, hətta bəzən ateistlər belə fərqinə varmadan bu sözü işlədir. Bu sözü anlayaraq, dərk edərək, fərqinə vararaq dilə gətirməli və qəlblə ona reaksiya verməliyik. İmam Baqir (ə) buyurur: "İnsanın batini zahiri kimi gözəl olmalıdır. Hətta batini zahirindən gözəl olmalıdır". Zahirdə təmiz geyinmək, səliqəli olmaq yaxşıdır, amma batin bundan daha gözəl durumda olmalıdır.Bəli, Kərbəla məktəbinin altıncı dərsi – tövbə mədəniyyətidir.

Tövbə olmasa, insan namaz qıla-qıla, oruc tuta-tuta, Quran oxuya-oxuya bir gün gələr İmamının (ə) qarşısında dayanar. Kərbəlada biz bunu gördük. Ona görə də Kərbəlanın ən böyük dərslərindən biri də tövbədir. Hamımız səhv edə bilərik. Mömin və möminə öz həddində səhvlər edə, xətaya yol verə bilər, mömin və möminə də xətadan sığortalanmayıb. Quran bizə deyir ki, tövbə Allah dərgahında olar və bir də o əməllər xatırlanmaz, yada salınmaz

Necə namaz qılmaq, oruc tutmaq kimi vacibatalarımız var, eləcə də vaxtaşırı daxilimizə baxıb əməllərimizi təftiş etməliyik, tənzimləməliyik. O əməlləri ki, Allah bəyənmir, onları tərk etməli və tövbə etməliyik.

Allahın bizdən istədiyi Nəsuh tövbəsidir. İçdən, daxildən

gələn, peşmançılığa səbəb olan, dillə iqrar edilən, ona qayıdılmayan, iradəvi edilən və bir daha o gunaha qayıtmamaq əzmiylə səciyyələnən tövbədir Nəsuh tövbəsi. Bizdən istənilən tövbə budur. Onu da qeyd edək ki, tövbənin xüsusi şəraiti, xüsusi vaxtı, zamanı, xüsusi məqamı yoxdur. Nə zaman ki, anladın xəta edibsən, büdrəmisən – elə o an heç nəyi gözləmədən tövbə edilməlidir.

**Tövbənin mahiyyəti**

Tövbənin mahiyyətinə varmaq üçün, Müqəddəs Kitabımızın "Təhrim" surəsinin 8-ci ayəsinə diqqət edək. Burada həqiqi tövbənin əsas xüsusiyyətlərinə işarə edilir: "Ey iman gətirənlər, Allaha xalis bir tövbə edin, ümid olunur ki, Rəbbiniz sizin günahlarınızı örtsün və sizi (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlərə və bağlara daxil etsin. Elə bir gündə Allah, Peyğəmbəri və onunla birgə (Allaha) iman gətirənləri xar etməz. Onların nuru (dirilmək məkanı olan) qəbirdən (haqq-hesab məkanına qədər) önlərində və sağ tərəflərində hərəkət etməkdədir. Deyərlər: «Ey Rəbbimiz, bizim nurumuzu tamam-kamal et və bizi bağışla. Sən hər şeyə qadirsən!»". ("Təhrim" surəsi 8-ci ayə).

**Ayənin təfsiri çalarlarına diqqət edək:**

1. Möminlər tövbəni doğuran amillərdən sığortalanmayıb.

2. Tövbə elə-belə tövbə deyil, xalis, Nəsuh tövbəsi olmalıdır.

3. Tövbə Allah dərgahında olmalıdır.

4. Tövbə namaz və oruc kimi mömin və möminlərin üzərində olan mükəlləfiyyət mövzusudur.

5. Tövbə yalnız dildə olmalı deyil. O, içdən gəlməli və həqiqətən Allaha tərəf yönəlməlidir.

6. Xətanı anladığımız an dərhal Allaha tərəf yönələrək, tövbə etməliyik.

7. Nəsuh tövbəsi budur ki, insan tövbə edə və bir daha o günaha doğru  geri dönməyə. Bu haqda da İmam  Sadiq (ə) və İmam Hadidən (ə) hədislər nəql edilir ki, iç zahirdən pis olmamalı, müsəlmanın batini zahirinə müvafiq, uyğun olmalıdır, hətta batin gözəllikdə zahiri üstələmədir.

8. İnsan öz durumundan narazı olaraq, etdiyi tövbə Allahın razılığı üçün olan tövbə kimi qəbul olunur.



**Tövbənin daha 4 xüsusiyyətinə, təfsiri çalarına diqqət edək.**

1. Tövbə bəndə ilə Allah arasında olan əməldir.

2. Tövbənin 2-ci xüsusiyyəti budur ki, əgər bu, baş veribsə, həm özünü və həm də ətrafını hərəkətə gətirər.

3. Həqiqi tövbə möminin dağılmış halını, cəhətlərini cəmləyər, müsbət xüsusiyyətlərini bərpa edər, onları gücləndirər.

4. Tövbə gələr və günahın təsirini aradan aparar. Günah insana həm fiziki, həm mənəvi, həm də psixoloji təsirlər qoyar. Tövbə bunları da aradan aparar. Ümumilikdə

Nəsuh tövbəsinin 20-dən çox xüsusiyyəti var ki, onların 4 əsas cəhəti var:

1. Qəlbi peşmançılıq olmasa, tövbə yoxdur.

2. İnsan qəlbən peşmandırsa, bunu dillə Rəbbinə bəyan edir, dillə izhar edir.

3. Dili ilə dediyini digər tərəfdən əməllə davam etməyə çalışır. Günahın tərkinə əzm edir.

4. Əzmi olur ki, bir də o günahı təkrar etməsin.

Bu 4-ü birləşşə, xoş o insanın halına.

Allahım! Bizləri Kərbəla məktəbini dərk edənlərdən qərar ver! Amin!

**Hacı İlqar İbrahimoğlu,**
ilahiyyatçı-filosof



# MƏHƏRRƏM AYININ 10-CU GÜNÜ

# KƏRBƏLADA BAŞ VERMİŞ HADİSƏLƏR

**Hicrətin 61-ci ili Məhərrəm ayının onu Aşura günündə tarixin ən dəhşətli cinayəti məhz zəmanənin ən dəyərli insanı haqda baş verdi.**



***Həmin il Məhərrəmin onu cümə gününə təsadüf edirdi. Sübh çağı İmam Hüseyn (ə) vəfalı səhabələri ilə birgə namaz qıldıqdan sonra mübarək əlini göyə qaldırıb belə buyurdu:***

***İlahi! Sən müşküllərimdə pənahım, çətinliklərdə ümidim, başıma gələn hər bir hadisədə yavərimsən; İlahi, qəlb qıran, çarəni kəsən, dostu ləyaqətsiz edən və düşmən sancısı gətirən qəlb yaralarından Sənə şikayət edirəm ki, Sənə ümid etmək başqalarına ehtiyacsızlıqdır. Belə olduğu halda bağlı qapıları aç və ümid qapılarını göstər. Bütün nemətlər və yaxşılıqlar Sənə məxsusdur və Sən bütün ümidlərin qayəsisən.***

## MÖVLA İMAM HÜSEYNİN (Ə) SƏHABƏLƏRİNİN SAYI

Aşura günü Həzrət İmam Hüseynin (ə) səhabələrinin sayı otuz iki süvari və qırx piyada olmaqla cəmi yetmiş iki nəfər idi. Lakin Məhəmməd ibn Əbu Talibdən nəql olunan rəvayətdə piyadaların sayı səksən iki nəfər bildirilir. Seyyid İbn Tavus İmam Baqirdən (ə) nəql etdiyi hədisdə süvarilərin sayı qırx beş, piyadaların sayı isə yüz nəfər bildirilir.



İmam Hüseyn (ə) Züheyr ibn Qiyni qoşunun sağ tərəfinə, Həbib ibn Məzahiri isə sol tərəfinə başçı təyin etdi. Bayrağı qardaşı Abbasın (ə) əlinə verib xeymələri qoşunun arxa hissəsində saxladı. Əmr etdi ki, xeymələrin arxasında olan xəndəyləri çubuq və qamışla doldurub yandırsınlar ki, düşmən arxadan hücum edə bilməsin.

## DÜŞMƏN ORDUSU HƏRƏKƏTƏ KEÇİR

Ömər Sədin qoşunu Əhli-Beytin (ə) xeymələrinə doğru hərəkət edib xeymələri mühasirəyə aldı. İmam Hüseynin (ə) qazdırdığı xəndək və onun yanar odu ilə üz-üzə durdular. Şimr ibn Zil-Cövşən (Allahın lənəti olsun ona) bağıraraq dedi: ey Hüseyn! Qiyamət və Cəhənnəm odunun vaxtı çatmamışdan qabaq, odun görüşünə getmisənmi?!

İmam Hüseyn (ə) buyurdu: Bu kimdir? Sanki Şimr ibn Zil-Cövşəndir!

Dedilər: Bəli.

Müslim ibn Övsəcə Şimr məlunu nişan alıb oxlamaq istədi. Lakin İmam Hüseyn (ə) onun bu istəyinə mane oldu.

Ərz etdi: İcazə verin zalımlardan olan bu fasiqi oxla vurum ki, yaxşı fürsətdir.

İmam (ə) buyurdu: Onu vurma. Çünki bu dəstə ilə müharibəni mən başlamaq istəmirəm.

## MÖVLA İMAM HÜSEYNİN (Ə) XÜTBƏSİ

İmam Hüseyn (ə) atını istədi, minib Ömər Sədin qoşunundan əksəriyyətin eşidəcəyi tərzdə ucadan səsləndi:

Ey camaat! Sözümü eşidin, döyüşməyə tələsməyin ki, mənə vacib olan və sizin mənim boynumda haqqınız olan şeyi sizlərə moizə edim, işin həqiqətini sizə açıqlayım. İnsaflı olsanız səadətə çatacaqsınız, amma qəbul etməyib ədalət və insaf yolundan uzaq dursanız öz qərarınızı həyata keçirib mənimlə döyüşün. Böyük Allah mənim sahibim və rəhbərimdir. Həmin Allah ki, Quranı nazil etdi və yaxşı iş görənlərin ixtiyarı Onun əlindədir.

İmam Hüseyn (ə) fəsahətlə Allaha həmd səna etdikdən sonra Peyğəmbərə (s) və mələklərə salam göndərib buyurdu:

Mənim nəslimi xatırlayın! Kiməm mən? Özünüzə gəlib özünüzü qınayın görün məni öldürmək və hörmətimi sındırmaq rəvadırmı? Mən sizin Peyğəmbərinizin qızının oğlu, onun canişini və əmisi oğlunun oğlu deyiləmmi?! O şəxs ki, hamıdan öncə iman gətirib, Allah Rəsuluna (ə) Rəbbi tərəfindən nazil olan hər bir şeyi təsdiq etdi?! Şəhidlər ağası Həmzə mənim əmim deyilmi?! Allahın, Cənnətdə pərvaz etməsi üçün ona iki qanad verdiyi Cə`fəri Təyyar mənim əmim deyilmi?!

Siz Peyğəmbərin mən və qardaşımın haqqında: "Bunlar Cənnət cavanlarının ağasıdır" dediyini bilmirsinizmi?! Əgər mənim sözümə inanmırsınızsa və mənim düz danışmağımda şübhəniz varsa, Allaha and olsun Allah yalançıları Özünə düşmən bildiyini anlayandan sonra heç



vaxt yalan danışmamışam. Düz danışmaqda məşhur olan insanlar sizin aranızdadır, onlar mənim sözümü təsdiq edəcəklər. Cabir ibn Abdullah Ənsari, Əbu Səid ibn Xidri, Səhl ibn Səd Saidi, Zeyd ibn Ərqəm və Ənəs ibn Malikdən soruşun onlar sizə Peyğəmbərdən eşitdiyini desinlər ki, mənim doğru danışmağım sizə sabit olsun. Bu şahidlik mənim qanımı axıtmağa sizə mane olmurmu?!

İmam (ə), düşmən tərəfi moizə etdikdən sonra orada olan qəlbi qara insanlardan bir neçəsi Həzrətin (ə) qəlbini nalayiq ifadələrlə incitdilər. İmam (ə) o kəslərə nifrin etdi.



Onlar hərəsi bir şəkildə həlak oldular. Abdullah ibn Huzə Təmimi, İmam Hüseynə (ə) – səni odla müjdələyirəm – dedi. İmam Hüseyn (ə) əllərini göyə qaldırıb – İlahi onu odda yandır – deyə nifrin etdi. Tarixdə yazılır ki, Abdullah ibn Huzə özündən çıxıb çox qəzəbləndi, bu anda onun atı hürkdü və o, yerə yıxıldı. Amma ayağı atın üzəngisinə ilişib bədəni iki para oldu. Sonra bədənin qalan bir hissəsi daşa ilişərək oda düşüb ləzzətini daddı. İbn Əbi Cüveyriyyə və Təmim ibn Hissin adında başqa iki nəfər də İmama (ə) nalayiq sözlərinə görə İmamın (ə) duası ilə yanaraq cəhənnəmə vasil oldular.

Bunu görən düşmən qoşunundan Məsruq ibn Vail Həzrəmi adında birisi deyir:

Mən Ömər Sədin qoşunun qabağında durmuşdum ki, İmam Hüseynin (ə) başını Übeydullah ibn Ziyad üçün aparım və mükafatımı alım. Lakin o Həzrətin duasının qəbul olduğunu görəndə bildim ki, bu ailənin Allah yanında hörməti və məqamı var. Buna görə də, Ömər Sədin qoşunundan ayrılıb qayıtdım. O ailədən gördüyüm şeylərə görə heç vaxt onlarla müharibə etməyəcəm.

Bu qədər möcüzə və kəramətdən sonra düşmən qoşunu hay-küy etməyə başladı ki, olmaya İmamın (ə) haqq sözü kimisə qəflət yuxusundan oyatsın.

İmam Hüseyn (ə) bundan sonra ikinci xütbəni oxudu sonra isə Ömər Sədi çağırdı.

## İMAM HÜSEYN (Ə) ÖMƏR İBN SƏDİN AQİBƏTİNDƏN XƏBƏR VERİR

İmam Hüseyn (ə) soruşdu: Ömər Səd haradadır? Onu mənim yanıma çağırın.

Ömər Səd gəlmək istəməsə də bu görüş baş tutdu. O, İmam Hüseynin (ə) yanına gəldi. İmam (ə) ona buyurdu: Sən məni öldürürsənmi? Güman edirsən ki, zinakar oğlu zinakar (İbn Ziyada işarədir) Rey və Qorgan hakimiyyətini sənə verəcək?! Allaha and olsun ki, bu cür olmayacaq və bu bir əhddir! Nə istəyirsən et, məndən sonra dünya və axirətdə şad olmayacaqsan, sənin başını nizədə Kufənin küçələrində gəzdirildiyini görürəm ki, uşaqlar ona daş atırlar.



Ömər Səd əsəbləşib üzünü döndərib qoşununa dedi: Nə gözləyirsiniz? Hamınız birlikdə ona hücum edin ki, onlar bir tikə loğmadan artıq deyil!

Bundan sonra İmam Hüseyn (ə) yenə başqa bir xütbə oxudu və xütbəsinin sonunda bu sözləri buyurdu:

Deyirəm Allahdan qorxun və məni öldürməyin, çünki məni öldürmək və hörmətimi sındırmaq caiz deyil. Mən sizin Peyğəmbərinizin qızının övladıyam. Mənim nənəm Peyğəmbərin xanımı Xədicədir, ola bilsin Peyğəmbərin sözü sizə çatıb ki, buyurub: Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdır.

**HÜRR İBN YEZİD RİYAHİ TÖVBƏ EDİR**

İmam Hüseyn (ə) atından yerə enib Əqəbət ibn Səmana göstəriş verdi ki, atını bağlasın. Bu əsnada Kufə ordusu İmam Hüseyn (ə) və onun tərəfdarlarına doğru üz tutdu!

Hürr ibn Yezid Riyahi qoşunun döyüşmək qərarını görəndə Ömər Sədin yanına gəlib dedi: Hüseyn ilə döyüşəcəksənmi?!

Məl'un Ömər Səd dedi: Bəli, Allaha and olsun elə bir döyüş ki, onun ən kiçik hadisəsi başların və əllərin kəsilməsidir!!

Hürr dedi: Hüseynin söylədikləri sənə kifayət etmədimi?

Ömər Səd: Əgər mənlik olsaydı qəbul edərdim, amma sənin əmirin Übeydullah qəbul etmir!!

Hürr qayıdıb onunla birgə öz qəbiləsindən olan Qürrət ibn Qeys adlı bir kişiyə dedi: Ey Qürrət! Öz atına su vermisənmi? Qürrət dedi xeyr verməmişəm. Qürrət deyir ki, mən hiss etdim ki, o döyüşdən qaçmaq istəyir və qərarından məni xəbərdar etsəydi mən də ona qoşulacaqdım.

Bundan sonra Hürr gəlib İmam Hüseynin (ə) yanında tövbə edir və düşmənlə ilk döyüşən də, elə Hürr özü olur.

**QEYBDƏN SƏS**

Tarixdə yazılır ki, Hürr İmam Hüseynə (ə) dedi: Übeydullah ibn Ziyad məni sənin üstünə göndərəndə, saraydan çıxdığım an arxamdan bir səs eşitdim ki, deyirdi: "Ey Hürr! Şad ol sevin ki, xeyrə doğru gedirsən". Elə ki, arxama dönüb baxdım kimsəni görmədim! Öz-özümə dedim: Bu necə müjdədir ki, Hüseyn (ə) ilə döyüşməyə gedirəm. Heç vaxt təsəvvür etmirdim ki, sonda sizə tabe olacağam.

İmam (ə) buyurdu: Xeyir yoluna hidayət oldun.

Beləliklə tarixin yaddaşlardan silinməz, təkrar olunmaz və ədalətsiz döyüşü başladı. Ömər Sə`d bir ox İmam Hüseynin (ə) ordusuna tərəf ataraq dedi: Şahid olun ki, Hüseynlə döyüşə başlayan ilk şəxs mən oldum. Bundan sonra o zalım tayfa oxlarını İmam Hüseynin (ə) ordusuna tərəf nişan alıb atdılar. Oxlar yağış kimi yağırdı. Hətta bir nəfər belə İmam Hüseynin (ə) qoşunundan qalmadı ki, ona ox dəyməsin. Məhz bu səbəbdən İmam Hüseynin (ə) səhabələrindən əlli nəfəri ilk hücumda şəhid oldular. Sonra döyüş təkbətək formada davam etdi. İlk növbədə sağ qalmış səhabələr döyüşə yollandılar. Ardınca Bəni Haşimdən olan İmam Hüseyn(ə)in övladları, qardaşları və qardaşı uşaqları, eləcədə Xanım Zeynəbin oğlanları



bir-bir izn alıb döyüş meydanına getdilər. Xeymələrdə susuzluqdan sızıldayan körpə uşaqlar, qızlar – gəlinlər üçün İmam Hüseyn(ə)nin əmri ilə su dalınca getmiş Həzrət Əbəlfəzl (ə) yolda mühasirəyə düşür, məşki oxlanıb qolları qələm olduqdan sonra məzlumcasına şəhid olur. Sonda isə vəfalı dost, qardaş və övladlarını qurban vermiş haqq-ədalət carçısı, Peyğəmbər (s) nəvəsi, Zəhra (əs) balası İmam Hüseyn (ə) meydana üz tutur. Rəşadətlə döyüşüb düşmənləri bir-bir önündən götürən İmam Hüseynlə (ə) yaxından mübarizə apara bilməyən qorxaq düşmən, uzaqdan ox yağdırıb nizə atmağa başladılar. Arxadan və uzaqdan namərdcəsinə atılan oxlar və daşlar İmam(ə)ın atdan yıxılmasına səbəb olur. Beləliklə Aşura günü günəş batmazdan öncə İmamətin üçüncü günəşi qürub edir.

Allah zalım tayfaya lənət eləsin!

Maide.Az



# İlk mərsiyə məclislərini İmamlar (ə) təşkil etmişdilər

**Seyyidüş-şühəda (ə), səhabələri, övladları və ailə üzvləri elə bir məktəb qoyub gediblər ki, əsrlər boyu bəşərin yaddaşında həkk olmuşdur. Onlar üçün bir örnək və nümunəyə çevrilmişdir.**

Əgər kimsə İmam Sadiqin (ə) yanında İmam Hüseynin (ə) adını çəksəydi, Həzrət (ə) həmin günü səhərdən axşama qədər heç nə yeməz və gülməzdi. Davud Rəqqi nəql edir: "Bir gün İmam Sadiqin (ə) yanına getmişdim. Həzrət (ə) su istədi. Suyu içən zaman gözləri yaşla doldu və buyurdu: "Davud! Elə bir bəndə yoxdur ki, su içsin və Hüseyni (ə) yada salsın, qatillərinə lənət göndərsin və Allah ona yüz min həsənə yazmasın, yüz min pis rəftarını pak etməsin, dərəcəsini yüz min artırmasın. Bu cür insan sanki yüz min qul azad etmişdir".

İmam Rza (ə) atasından nəql edir: "Nə zaman Məhərrəm ayı gəlib çatardı, atam on gün gülərüz görünməzdi. Qəm və qüssə ona qələbə çalardı. Doqquzuncu gün gəlib çatan zaman isə o günü onun müsibət, qəm və göz yaşı tökən günü olardı".

Məsum İmamlar (ə) özləri ilk mərsiyə məclisi təşkil edən insanlar olmuşdular. Zeyd Həşam nəql edir ki, bir gün kufəlilərlə bir yerdə İmam Sadiqin (ə) xidmətində idik. Bu zaman Cəfər ibni Əfvan gəldi. İmam (ə) onu yanına gətirib buyurdu: "Cəfər! Eşitmişəm ki, Hüseyn (ə) haqqında yaxşı şeir qoşmusan?". Sonra ondan həmin şeiri oxumasını istəyir və Cəfər də oxuyur. İmam (ə) və ətrafındakılar ağlayırlar. İmam (ə) o qədər ağlayırdı ki, göz yaşları mübarək saqqalından axırdı.

Əbu Əmarə nəql edir ki, İmam Sadiq (ə) məndən istədi ki, İmam Hüseyn (ə) müsibəti haqqında şeir oxuyam. Mən şeir oxuyurdu və Həzrət (ə) ağlayırdı.

Dəbəl Xəzayi nəql edir ki, bir gün İmam Rzanın (ə) xidmətinə gedir və tərəfdaşları onun ətrafında əyləşmişdilər. İmam (ə) Dəbəli görən zaman onu salamlayır və "xoş gəlmisən" deyir. Onu öz yanında əyləşdirir. Sonra İmam Hüseyn (ə) müsibətinə ağlamaq və ağlatmaq haqqında danışır. İmam (ə) ayağa qalxır və pərdəni çəkir ki, ev əhli də gəlib onlara qulaq assınlar. Sonra Dəbələ buyurur ki, İmam Hüseyn (ə) haqqında şeir oxusun.

Məsumlar (ə) bu rəftarları ilə İmam Hüseyn (ə) müsibətini yada salır və onun fəlsəfəsini dirçəldirdilər. Məsumlar (ə) eyni zamanda müsəlmanları Kərbəlanı ziyarət etməyə həvəsləndirir və onun fəzilətlərindən danışırdılar. İmam Baqir (ə) buyurur: "Bizim davamçılarımıza Hüseyni (ə) ziyarət etməyi əmr edin ki, onun qəbrinin yanına getmək, onu İmam (ə) kimi qəbul edən hər bir müsəlmana vacibdir".

İmam Sadiq (ə) Ummi Səyidə buyurur: "Ey Səyidin anası! Hüseyni (ə) ziyarət et, çünki onu ziyarət etmək bütün qadın və kişilərə vacibdir".

Kərbəlanı ziyarət etməyin fəziləti çoxdur. Ancaq xüsusi günlər vardır ki, bu savab daha da çox olar. Aşura günündən və İmamın (ə) ərbəinindən başqa Kərbəlanı Ərəfə, Rəcəb ayının əvvəlində və ortasında, Şəban ayının 15-də, Qədr gecələrində, Qurban bayramında və cümə gecəsində ziyarət etməyin savabı daha çoxdur.

İmam Sadiq (ə) buyurur: "İmam Hüseyn (ə) zəvvarlarını atalarından daha yaxşı tanıyır və onlara nəzər salır. O, İmam üçün ağlayan insana nəzər salar, nəinki özü onun üçün istiğfar edər, bəlkə atası İmam Əlidən (ə) də xahiş edər ki, onun üçün istiğfar etsin. İmam Hüseyn (ə) bu şəxsin bütün günahlarına görə istiğfar edər".

Həzrət (ə) başqa yerdə buyurur: "O kəs ki, onun yanında bizi yada salarlar və göz yaşı axmağa başlayar, hərçənd ağcaqanadın qanadı qədər olsa belə, günahları bağışlanar. Hətta əgər günahları dənizin dibi qədər olsa belə". İmam (ə), Əbu Əmarəyə buyurur: "O kəs ki, şeiri ilə 50 nəfəri ağladar, mükafatı behiştdir".

İmamlar (ə) tarix boyu Aşura məktəbini tanıtmış və onun dirçəlməsi və yayılması üçün əllərindən gələni etmişdilər. Bütün bunlar ona görə idi ki, insanlar bu qanlı hadisədən ibrət dərsi götürüb, müsibətlərə səbir edən zaman onları özlərinə örnək hesab etsinlər. Aşura məktəbi - İslamın davamlı və qalıcı olması deməkdir.



# TÜRK VƏ QEYRİ ƏRƏB KƏRBƏLA ŞƏHİDLƏRİ

***Aşura günündə Kərbəlada İmam Hüseyni (ə) müdafiə edərək şəhid olmuş səhabələrin sırasında ərəblərlə yanaşı, başqa millətlərə mənsub olan şəxslər də var idi. Demək olar ki, bütün böyük ərəb qəbilələrinin təmsil olunduğu bu azsaylı dəstənin tərkibində türk, həbəş və fars mənşəli şəxsiyyətlərin də olması tarix kitablarında qeyd edilib. Aşağıda onların barəsində qısa məlumat veririk:***

## TÜRK QULAM

Aşura müsibətini təsvir etmiş müəlliflərin demək olar ki, hamısı Kərbəla şəhidləri cərgəsində Əhli-beytə mənsub türk soylu qulamın olduğunu xəbər vermişdir. Onun adına və şəxsiyyətinə gəlincə, mənbələrdəki məlumatlar fərqlənir. Mövcud mənbələrdə bu şəhid «türk qulam», «Əsləm» və «Vazeh» adları altında xatırlanır.

Mərhum Şeyx Şəmsüddin «Ənsarül-Hüseyn» kitabında qeyd edir ki, Təbəri türk qulamın adını «Süleyman» yazmışdır. Şeyxüt-taifə Tusi isə «Rical» kitabında yazır ki, İmam Hüseynin (ə) Səlim (və ya Süleym) adlı qulamı onunla birlikdə şəhid olmuşdur. Şeyx Şəmsüddin qısa tədqiqatdan sonra bu fikri irəli sürür: «Güman edirik ki, Kərbəlada öldürülmüş qulamın adı nə Səlim, nə də Süleyman deyil, Əsləm imiş» (səh. 83).

«Dairətül-məarifi-təşəyyö» («Şiə ensiklopediyası») kitabında (II, 161) Əsləmin atasının adı Əmr kimi göstərilir. Həmçinin, bu kitabda yazılıb: «Bəzi mənbələrdən, o cümlədən, «Vəsilətüd-dareyn» kitabından məlum olur ki, Əsləmin atası Qəzvin nahiyəsindən, Deyləmandan imiş». Adı çəkilən «Vəsilətüd-dareyn» əsərində (səh. 100) yazılıb: «Əsləmin atası Əmr türk idi (zahirən atası Qəzvin yaxınlığındakı Deyləm türklərindən imiş)». Seyyid Mustafa Hüseyni Dəştinin «Məarif və məariyf» əsərində isə türk qulam «Vazeh» adı ilə xatırlanır.

Məşhur din alimi Əllamə Möhsin Əmin «Əyanüş-şiə» kitabında, Kərbəla şəhidlərinin siyahısında Əsləmlə Vazehi ayrı-ayrı şəxslər kimi təqdim etmişdir. Belə ki, bu siyahıya görə, Əsləmi-türki – İmam Hüseynin (ə), Vazehi-rumi isə Kərbəla şəhidi Haris Səlmaninin qulamı imiş («Əyanüş-şiə», I, 610-612).

Bəzi mənbələrdə türk qulam Hürrün qulamı kimi göstərilib (Ibn Şəhraşub. Mənaqibü Ali-Əbi Talib, IV, 113). Lakin səhih tarixi rəvayətlərə görə, Imam Hüseyn



(ə) öz qardaşı İmam Həsənin (ə) şəhadətindən sonra türk qulamı kölə kimi satın alıb, oğlu İmam Zeynülabidinə (ə) bağışlamışdı. Bütün aşura tarixçilərinin yekdil rəyinə əsasən, türk qulam Quran qaresi, bacarıqlı katib, mahir oxatan və şücaətli pəhləvan idi. O, İmam Hüseynin (ə) yazı və məktublarını qələmə alırdı. Bəzi rəvayətlərdə deyilir ki, Əsləmi-türki Quranı əzbər bilir və hər gecə Quran oxuyurdu. O, aşura günündə döyüş meydanında misilsiz hünər göstərib, 70 nəfər düşməni cəhənnəmə vasil etdi. İmam Hüseyn (ə) 7 nəfər şəhidin başı üzərinə gəlmiş və onlarla vidalaşmışdı. Bunlardan biri də türk qulam idi.

Şeyx Abbas Qummi «Nəfəsül-məhmum və nəfsətül-məsdur» kitabında (səh. 135) türk qulamın şücaətindən söhbət açandan sonra yazır: «İmam Hüseyn (ə) öz türk qulamına məhəbbətini bildirib, üzünü onun üzünə dayadı; halbuki, başqa silahdaşlarından heç biri ilə belə rəftar etmədi. Bir tərəfdən, İmam bu hərəkətlə qərib qulamı əzizləyirdi. Digər tərəfdən, qulamın mənəvi kamilliyə çatması və hafizi-Quran olması onu bu məqama layiq etmişdi».

Mənbələrdə Əsləmin döyüş meydanında oxuduğu iki beytlik rəcəz nəql olunur. Həmin rəcəzin tərcüməsi belədir: «Vurduğum zərbələrdən dənizlər qaynaşar, atdığım oxlardan səma tutular. Qılıncım əlimdə görünəndə, həsədli və təkəbbürlü düşmənin qəlbi yarılar».

Lakin maraqlı budur ki, hicri XIII əsrin şairlərindən olan Mirzə İbrahim Cövhərinin «Tufanül-büka fi məqatilişşühəda» əsərində (fars dilində nəzmlə yazılmış bu kitab vaxtilə çox məşhur olmuş, təziyə məclislərində oxunmuşdur) Əsləmin ərəb dilindəki bu rəcəzi verildikdən sonra belə yazılıb:

«Sonra o, bir anlıq İbn Sədə türk dilində müraciət edib, zəbani-halını söylədi:

Sədi-Vəqqas oğlu, üz qarə, nə bidad eylədin?!
Nuri-çeşmi-Heydəri-Kərrarı naşad eylədin!
Get, görüm nəslin qazılsın, heç nişanı qalmasın,
Bu ki, Nəmrud etməmiş, sən nəsli-Şəddad eylədin!
Siz ərəb, Əhməd ərəb, mən türk, ey birəhmlər,
Mərkəzi-imanı yıxdın, küfrü bünyad eylədin!
Zülm ilə solmuş bu gülşəndə baharı Zeynəbin,
Tişeyi-zülm ilə qəti-qəddi-şümşad eylədin!».

## ZƏNCİ CÖVN

İmam Hüseynin (ə) qulamı Cövn əslən Nubiyadan idi, nəsəbi isə belədir: Cövn ibn Hüveyy ibn Qətadə ibn Əvər ibn Saidə ibn Övn ibn Kəb ibn Hüveyy. O, vaxtilə Peyğəmbərin sadiq səhabəsi Əbuzərə xidmət etmişdi. Əbuzərin Rəbəzəyə sürgün olunmasından və orada vəfat etməsindən sonra Cövn Əhli-beytə xidmət etməyə başladı. O, əvvəlcə Həzrət Əlinin (ə), daha sonra İmam Hüseynin (ə) xidmətində durdu. İmam Hüseyn (ə) onu öz oğlu İmam Zeynül-abidinə (ə) qulluq etməyə təhkim etdi.



Cövn qara dərili zənci idi, silah hazırlamaq və itiləmək işində mahir idi. O, Mədinədən Kərbəlaya kimi Əhli-beyti müşayiət etdi. Aşura gecəsində İmam Hüseynin (ə) icazəsi ilə Cövn səhabələrin silahını itiləyib, döyüş üçün hazır vəziyyətə gətirmişdi.

Aşura günü İmam Hüseynin (ə) ətrafındakı döyüşçülərin sayı azalanda Cövn o həzrətin hüzuruna gəlib, döyüş icazəsi istədi. İmam Cövnə buyurdu ki, onu xidmətdən azad edir və beyətini üstündən götürür, Cövn hara istəsə, gedə bilər. Lakin bu sədaqətli qulam cavab verdi ki, mən Sizin şadlıq və salamatlıq vaxtlarınızda



yanınızda olub xidmət etmişəm; bu çətin gündə də Sizi buraxıb getmək istəmirəm. Rəngim qara, qoxum pis olsa da, Sizdən ayrılmayacağam. Şəhid olacağam ki, qara qanım Sizin şərəfli qanınıza qarışsın!

İmam Cövnün dönməz iradəsinə əhsən deyib, ona döyüş icazəsi verdi. Cövn savaş səhnəsinə qədəm basıb şücaətlər göstərdi. Nəhayət, 25 nəfər düşməni qətl edəndən sonra şəhid oldu.

İmam Hüseyn (ə) Cövnün cəsədi üstə gəlib, onun başını dizi üstünə qoydu və buyurdu: «İlahi, Cövnün üzünü ağ, ətrini xoş et. Onu yaxşı insanlar cərgəsində məhşərə gətir. Onunla Muhəmməd (s) və Ali-Muhəmməd (ə) arasında dostluq yarat!».

Hədislərdə deyilir, aşura faciəsindən sonra şəhidlərin cənazələrini dəfn edərkən gördülər ki, Cövnün bədənindən müşk ətri gəlir.

## NƏSR İBN ƏBU NEYZƏR

Aşura gününün əvvəlində düşmən qoşunu İmam Hüseynin (ə) kiçik dəstəsinin üzərinə kütləvi hücuma keçdi. Bu hücumu dəf edərkən səhabələrdən təqribən 50 nəfəri şəhid oldu. Bunlardan biri də Nəsr ibn Əbu Neyzər idi. Onun atası Həzrət Əlinin (ə) azad olunmuş qulamı idi. Tarixçilərin bir qismi Əbu Neyzəri hətta nəcaşinin (Həbəşistan padşahının) övladlarından saymışlar; guya Həzrət Məhəmməd Peyğəmbərin (s) təklifi ilə İslamı qəbul etmişdi. Bəziləri isə onun İran şahzadəsi olduğunu yazıblar.

Həzrət Əlinin (ə) və İmam Həsənin (ə) vəfatından sonra Nəsr İmam Hüseynə (ə) qoşulmuş, Mədinədən Kərbəlaya kimi Onu müşayiət etmişdi.



# İMAM HÜSEYNİN (Ə) SARSILMAZ ƏZMİ

***Şəhidlər sərvəri imam Hüseyn (ə) qiyama başlamazdan öncə yaxşı bilirdi ki, Yezid hakimiyyəti və onun şər qüvvələri onu və azyaşlı silahdaşlarını qətlə yetirmək niyyətindədir və xalq da o həzrətə yardım etməyəcəkdir. Çünki onlar vaxtilə imam Əli (ə) ilə imam Həsənə (ə) qarşı vəfasızlıq nümayiş etdirmiş, imam Hüseynin (ə) özünə isə o günədək hələ də beyət etməmişdilər. Hətta imam Əlinin (ə) dövründə xilafətin paytaxtı olan Kufə şəhərinin Əmirəlmöminin Əliyə (ə) beyət edən, onun arxasında camaat və cümə namazları qılan, çıxışlarında iştirak edən əhalisi belə onun, daha sonra isə imam Həsənin (ə) üzünə ağ olmuş, üsyan qaldırmışdı. Belə insanlara etimad etmək olmazdı. Bu faktı sübuta yetirmək üçün imam Hüseynin (ə) hələ Kərbəla yolunda ikən Kufəyə göndərdiyi rəsmi nümayəndəsi Müslüm ibn Əqili amansızcasına şəhid etdikləri xəbərini almasına diqqət yetirmək kifayətdir.***

İmam Hüseyn (ə) dostları və yaxınlarının qiyama etiraz cəhdlərinə rəğmən, Yezid iqtidarına qarşı mübarizə ilə qəti mövqeyini ortaya qoymuş və özünü şəhid olmağa hazırlamışdı. O, bilirdi ki, mövcud şəraitdə hakimiyyəti ələ keçirmək, hökumət təşkil etmək mümkün deyil. Hərçənd, qeyri-adi yollarla onun qətiyyətli mübarizəsi nəticə verə bilər və o, ilahi ədalətə əsaslanan bir hakimiyyət təsis edə bilərdi.

O həzrət İraqa yollanarkən qardaşı Məhəmməd Hənəfiyyə ona demişdi: "Hazırda siz mənim imamım, rəhbərimsiniz və əslində, mənim sizə itaətim vacibdir. Lakin sizə tövsiyə edirəm ki, belə böhranlı günlərdə Mədinədə qalmayasınız. Öncə Məkkəyə gedin və təhlükəsizliyiniz təmin olduqda, orada qalın. Əks-təqdirdə isə, Yəmənə yollanın. Çünki oranın əhalisi inqilabi əhval-ruhiyyəyə sahibdir. Yəməndə də təhlükəsizliyi gördükdə, artıq, heç bir yerdə daimi məskunlaşmayın. Bu halda üzərinə qoşun yeridərək sizi ələ keçirə bilərlər. O zaman diyarbədiyar gəzin."

İmam Hüseyn (ə) isə onun təklifinə belə cavab vermişdi: "Əgər sığınacaq bir yer qalmasa da, Müaviyə oğlu Yezidə beyət etməyəcəyəm." ("Biharul-ənvar", c.44, səh.329.)

O həzrət deyirdi ki, yer üzünün şərqində, ya qərbində, şimalında ya cənubunda sığına biləcəyim, əmin-amanlıqda olacağım bir yer tapmasam da, şəhərbəşəhər, kənd-bəkənd dolaşmalı olsam da, bu rəzil hakimiyyətlə razılaşmayacağam.

Həmçinin Mədinənin valisi Vəlidin Yezidə beyət etməklə bağlı təklifinə cavab olaraq belə buyurmuşdu: "Yezid fasiq günahkar, əyyaş, qətli haram olan insanların canına qıyan, nümayişkaranə surətdə günaha qurşanan bir kəsdir və mənim kimi bir insan onun kimi birinə əsla beyət etməz." ("Biharul-ənvar", c.44, səh.325.)

Diqqət etsəniz, görərsiniz ki, burada Yezidin özündən deyil, əksinə, imam Hüseynin (ə) mənəvi prinsipləri ilə uzlaşmayan bir düşüncədən, münasibətdən söhbət gedir. Ona görə, beyət satılmaq demək idi. O deyirdi ki, canını və malını Allaha satan (razılığı naminə canını və malını Ona fəda edən) təkallahçı artıq onların sahibi sayılmır və onlardan Allahın izni və razılığı olmadan istifadə etsə qəsbkardır.

İmam Hüseyn (ə) Mərvan ibn Həkəmin eyniməzmunlu təklifinə cavabı da bu mənəvi prinsipdən xəbər verir: "Əgər bu ümmətə Yezid kimisi rəhbərlik etməli olsa, onda İslamla vidalaşmaq lazımdır." ("Əl-futuh", c.5, səh.17.)

Bir sözlə, Kərbəla hərəkatının mehvəri özünü ilahi öhdəliklər qarşısında məsul hesab edən hüquqi şəxs, başqa sözlə, ümmətin rəhbəri idi. Yəni imam Hüseyn (ə) bu çağırışında bəyan edirdi ki, həm təfəkkür tərzi, həm də məqsəd və istəkləri mənim kimi olan şəxs istibdad rejiminə, zalım hakimiyyətə qarşı barışmaz mövqe tutmalıdır. Bu qətiyyətli mübarizə yalnız mənim vəzifəm deyil, mənim kimi düşünən bütün insanların vəzifəsidir. Həmçinin mənim qarşımda mövqe tutan qüvvələr də Yezid iqtidarı ilə məhdudlaşmır. Həm təfəkküründə, həm də rəftarlarında onun kimi cəhalətə düçar olan hər bir qəddar hökmdar dərsini almalı, yalançı izzət və məqamından gerçəkdə layiq olduğu zillətə sürüklənməlidir.

Ulul-əzm peyğəmbərlərin varisi və ulul-əzm imamlarından biri olan imam Hüseyn (ə) Əməvi istibdad rejimini devirmək üçün ilk gündən qərarını qətiləşdirmiş, bu uğurda sürgün, hicrət, şəhadət, ailəsi və övladlarının əsarəti kimi təhlükə

və çətinlikləri qəbul etmişdi. Ona hətta "xarici" töhməti də vurulmuş, haqq yolunun rəhbəri fitnə-fəsad törətməkdə ittiham edilmişdi. O, namərdcəsinə üzərinə atılan bu böhtanlara cavabını vəsiyyətnaməsində belə açıqlayır: "Mən lovğa və dikbaş, fitnə-fəsad və zülmə rəvac verən biri olaraq üsyana qalxmadım. Həqiqətən, mən yalnız babamın ümməti arasında islahat çağırışı ilə qiyam etdim. İnsanları (Allah tərəfindən) məqbul hesab edilən əməllərə sövq etmək, məqbul hesab edilməyən əməllərdən isə çəkindirmək, babamın və atam Əli ibn Əbu Talibin yolu ilə getmək istəyirəm." ("Biharul-ənvar", c.44, səh.329.)

İmam Hüseyn (ə) buyururdu ki, mən üzərimə atılan bütün iftiralardan uzağam, mənim ali hədəfim ilahi peyğəmbərlərin ali qayəsi ilə üst-üstə düşür, mənim bu hədəfə nail olmaq üçün tutduğum yol da saleh sələflərim olan peyğəmbərlərin və ilahi rəhbərlərin doğru yoludur.

O həzrət Məkkəyə gələr-gəlməz Abdullah ibn Ömər və Abdullah ibn Abbas kimi nüfuzlu şəxslər vaxt itirmədən onu Əməvi istibdadına qarşı qiyam etmək niyyətindən daşındırmaq üçün onun görüşünə tələsmişdilər. Abdullah ibn Ömər ona təklif etmişdi ki, Mədinəyə qayıtsın və öz vətənindən, Allah Rəsulunun (s) hərəmindən kənara çıxmasın ki, Əməvilərin də ona hücum üçün bir bəhanəsi qalmasın. O deyirdi ki, bu halda Yezidə beyət etməsən də, o, sənə yenidən düşünmək üçün fürsət verəcəkdir.

Şəhidlər sərvəri imam Hüseyn (ə) isə ona cavabında açıqlayır ki, mən əsla yanlış addım atmamışam, artıq təqiyyə və saziş zamanı deyil. O həzrət ən doğru qərar qəbul etdiyini və bu yolda hər şeyini verməyə hazır olduğunu bildirdi: "Göylər və yer olduğu kimi durduqca, bu söz (mənim nəzərimdə) nifrətə layiqdir. Sənə and verirəm Allahı, ey Abdullah! (De görüm) mən bu qərarımla xətaya yol vermişəmmi? Əgər sənin nəzərincə xətaya yol vermişəmsə (və bunu sübut edə bilərsənsə), məni qaytar (Mədinəyə geri dönməyimi istə), mən sözə ən çox qulaq asan və (haqq sözə) ən yaxşı boyun əyənəm!"

Abdullah ibn Ömər: "Allah Öz Peyğəmbərinin (s) övladını əsla xətaya salmaz, ancaq sizin qanınızın axıdılmasından qorxuram!" – dedikdə isə, imam Hüseyn (ə) bəyan edir ki, əgər onlar məni öldürməkdə qərarlıdırsa, mən də İbrahim Xəlilullah (ə) kimi Allaha təvəkkül içindəyəm və O, məni istənilən halda qalib edəcəkdir.

("İmam Hüseyn (ə) və əqlin inkişafı", səh.187-190.)

Maide.Az



# XANIM ZEYNƏB (S.Ə) MÜSİBƏTLƏR ANASI

***Xanım Zeynəb (s.ə.) qəhrəman, şücaətli, müqavimətli və yorulmaz bir qadın olub. Dünyada şücaətli qəhrəmanlar onun şəxsiyyəti, çalışqanlığı və şücaəti qarşısında baş əyiblər. O, yetkinlik yaşına çatanda, çoxlu elçilər arasından igid və şəxsiyyətli bir oğlanı – əmisi oğlu Abdullah ibn Cəfər Təyyarı özünə həyat yoldaşı seçir; bu şərtlə ki, hər zaman imam Hüseyn (ə) səfərə getmək istəsə, Zeynəbin (s.ə.) qardaşı ilə birlikdə olmasına mane olmasın. Zeynəbi-Kubranın (s.ə.) barəsində deyilməli sözlər çoxdur və onun qanlı Aşura inqilabındakı şücaətinə nəzər salaq:***

İmam Hüseyn (ə) Mədinədən çıxıb, bir müddət Məkkədə qaldıqdan sonra İraqa tərəf mənzil-mənzil hərəkət edəndə, xanım Zeynəb (s.ə.) qardaşı ilə birlikdə olur. O, yaxşı munis və möhkəm sirdaş kimi, imam Hüseyni (ə) himayə edir və Kərbəlada İslam döyüşçülərinin misilsiz köməkçisi olur. O, altı qardaş (imam Hüseyn (ə), Əbülfəzl-Abbas (ə), Cəfər, Osman, Abdullah (Ümmül-Bəninin oğulları) və Ovn (Əsmanın oğlu)) dağı görür. Gözünün iki nuru – Ovn və Məhəmməd adlı iki yeniyetmə oğlu – Kərbəlada şəhadətə yetir. Bunlardan əlavə, Əliəkbər, Qasim və Abdullah kimi qardaşı uşaqlarının da dağına dözür. Xanım Zeynəb (s.ə.) qardaşlarının başlarının bədənlərindən ayrılmasının, xeymələrin yanmasının və yetim uşaqlara zülm olunmasının şahidi olur. Bütün bu müsibətlər müqabilində əgər dağ olsaydı əriyərdi. Amma tarixin bu dilavər carçısı, bu yorulmaz qəhrəmanı elə bir müqavimət göstərir ki, onu bəyan və qələmlə təcəssüm etmək olmur.

O, atasının zamanında Kufədə qadınların müəllimi idi. İmam Həsənin (ə) dövründə isə imkanı qədər İslamın vüsəti üçün çalışdı. Camaatın onun atası və qardaşına et-



diyi xəyanətlər, qədirbilməzliklər və ailəsinə edilən zülmlər Zeynəbin (s.ə.) cəddi və atasının sünnəsini dirçəltməsi yolunda iradəsinə azacıq belə mənfi təsir göstərmədi. O, qardaşı imam Hüseynin (ə) dövründə, ağır Kərbəla faciəsində özünü bütün çətinliklərə uyğunlaşdırdı. Maraqlısı budur ki, imam Səccadın (ə) buyurduğuna əsasən, bütün bu çətinliklərdə o, gecə namazını tərk etmədi. Xanım Zeynəb (s.ə) ər evindəki firavan həyatından əl çəkib özünün bütün güc və qüvvəsini imam Hüseynin (ə) yolunda sərf etdi. Kərbəla müsibəti baş verəndə, onun yaşı əlli beşdən çox idi. Bu yaşda dağ kimi möhkəm qaməti və dərya qədər geniş qəlbi vardı. Zeynəb (s.ə) bu hadisələr zamanı üç mühüm işi layiqincə yerinə yetirdi:

**1. İMAMI HİMAYƏ ETMƏK**

Xanım Zeynəb (s.ə.) imam Hüseyn (ə) sağ olduğu müddətdə o həzrəti, o da şəhid olduqdan sonra imam Səccadı (ə) himayə etdi. Bir neçə dəfə istədilər ki, imam Səccadı (ə) qətlə yetirsinlər, xanım Zeynəb (s.ə) buna imkan vermədi. Bu vəziyyətdən biri də İbn Ziyadın Kufə iqamətgahında, imam Səccadla (ə) İbn Ziyad arasında mübahisə zamanı yarandı. İbn Ziyad imam Səccadı (ə) şəhid etmək istədikdə, xanım Zeynəb (s.ə) qoymadı və dedi: “Əgər o öldürüləcəksə, elə isə məni öldür.”

(“Məqtəlul-Muqərrəm”, səh.371.)

**2. ŞƏHİDLƏRİN UŞAQLARINI HİMAYƏ ETMƏK VƏ QORUMAQ**

Xanım Zeynəb (s.ə) şəhidlərin uşaqlarından elə himayədarlıq edirdi ki, hətta öz yemək payını da onlar üçün saxlayır, uşaqlara gecə-gündüz nəvaziş göstərir və dayanmadan öz səyi ilə onları düşmən təhlükəsindən amanda saxlayırdı.

**3. ŞƏHİDLƏRİN QANINDAN HİMAYƏDARLIQ ETMƏK, HƏDƏF VƏ MƏQSƏDLƏRİNİ ÜMMƏTƏ AŞILAMAQ**

Xanım Zeynəb (s.ə) imam Hüseyn (ə) və Kərbəla igidləri şəhid olduqdan sonra hər fürsətdə, hara getdisə onların hədəf və məqsədlərini çatdırırdı. Zalımların başı üzərində elə fəryad etdi ki, hələ də çəkdiyi fəryadın zərbələri Yezidin və Yezid dəstəsinin üzünə dəyir və uca bəyanı zülmkarları lərzəyə salır.

O xanım Yezidin Kufədəki qaniçən valisi İbn Ziyadın hökumət iqamətgahındakı çıxışında bütün mətləbləri bəyan etdi və hamını ağlatdı. Zeynəb car çəkdi: “Ey kufəlilər! Heç bilirsinizmi Peyğəmbərin (s) qəlbini necə parçaladınız, hansı qanı axıtdınız, necə də böyük bir günah etdiniz? Göydən sizə yağış əvəzinə qan yağacaq. Axirətdə isə elə bir əzaba giriftar olacaqsınız ki, heç bir şəfaətçinin sorağınıza gəlməyəcəyinə təəccüb edəcəksiniz?” (“Məqtəlul-Hüseyn (ə)”, Muqərrəm, səh.384.)

Həzrət Zeynəbin (s.ə) Yezidin Şamdakı hökumət iqamətgahındakı xütbəsi Yezid və onun əlaltılarını qiyamətə qədər rüsvay etdi. Onun çıxışı Qurani-Kərimin ayələrinə əsaslanan, hərtərəfli və qaneedici bir xütbə idi. Elə bil ki, bu xütbəni o xanımın ata-anası söyləyirdi. Yezidin burnunu yerə sürtdü. Xanımın (s.ə) xütbəsi çox genişdir və bir neçə cümləsi ilə kifayətlənirik:

“Ey Yezid! Ey Məkkənin fəthində əsir düşmüşkən cəddim Peyğəmbərin (s) əli ilə azad edilən kəslərin oğlu! Nə qədər hiylə və kələk bilirsənsə işlət! Lakin and olsun Allaha! Bizi və bizim səhnədəki hüzurumuzu heç vaxt məhv edə və vəhyin nurlu işığını söndürə bilməyəcəksən. Hərçənd ki, sənin zülmlərin dağları uçurdan və göyləri viran edəndir. Ancaq sənin nənən İslamın ilkin şəhidlərinin ciyərini (həzrət Həmzənin (ə) ciyərini) çeynəyibsə, səndən bundan artıq nə gözləmək olar? Sən İslamla açıq-aşkar müxalifət bayrağı qaldıranların oğlusan. Mən istəməzdim ki, zəmanə məni səninlə üz-üzə gətirsin. Ancaq indi belədirsə, mən səni şəxsiyyətsiz bilib, sənə qarğış yağışı yağdıracağam. Bizim əzizlərimizi öldürməyinə sevinmə! (Quran buyurur): “Allah yolunda öldürülənləri (şəhid olanları) ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub, ruzi (cənnət ruzisi) yeyirlər.” (“Ali-İmran” surəsi, ayə 169.)

Zeynəbin (s.ə) xütbəsi elə bir iş gördü ki, Yezid bütün günahları İbn Ziyadın boynuna yıxdı.

(Tarixi-Təbəri, 6-cı cild, səh.266.)

O həzrət (s.ə) Kərbəla faciəsindən sonra Mədinəyə qayıtdı. Orada da fürsət düşdükcə, camaatı Yezidin əleyhinə qaldırar, onun çirkinliklərini ifşa edərdi. Əhvalatı Yezidə xəbər verdilər. Bəzi alimlərin nəqlinə görə, Yezid Mədinənin valisinə əmr etdi ki, Zeynəbi (s.ə.) Misirə sürgün etsin. Beləcə, xanım Zeynəb (s.ə.) imam Hüseyn (ə) şəhid olandan bir il neçə ay sonra dünyadan getdi. Bəzi alimlərin nəzərinə görə isə, xanım Zeynəb (s.ə.) əri ilə Şama getdi və orada dünyasını dəyişdi. Bu, tarixdə həmişəyaşar və dağ kimi vüqarlı olan bir neçə şəhid bacısının və iki şəhid anasının qəhrəmanlığı barəsindəki qısa məlumat idi. O, İbn Ziyadın qarşısında açıq-aşkar şəkildə demişdi: “Mən Kərbəlada gözəllikdən başqa bir şey görmədim.” Yəni şəhidlik bizim üçün səadətdir. O, imam Hüseynin (ə) yaralı bədənini əlləri üstə qoyub dedi: “Pərvərdigara! Bu qurbanı bizdən qəbul et.”

**Rza Şükürlü**

İmam Hüseyn (ə) dahilərin gözü ilə



**Lev Tolstoy**

*Görkəmli rus yazıçısı və mütəfəkkiri*

**“Zəburun, Tövratın, İncilin faciəsi onda oldu ki, onların Quranın qəhrəmanı kimi İmam Hüseyni olmadı.”**

muslimmedia

İmam Hüseyn (ə) dahilərin gözü ilə



**Vaşinqton İrvinq**

*Məşhur Amerikalı tarixçi*

**"İmam Hüseyn (ə) Yezidin iradəsinə tabe olmaqla öz həyatına nicat verə bilərdi, lakin rəhbər məsuliyyəti Ona, Yezidi xəlifə kimi tanımağa yol vermədi. O (ə) özünü tez bir zamanda İslamı Bəni-Üməyyənin zülm cəngindən azad etmək qəsdi ilə hər bir çətinliyi qəbul etməyə hazır etdi. Quru torpağın yandırıcı günəşi altında və ərəbistanın yanar daşları üzərində Hüseyn (ə) ruhu ölməzdir. Ey pəhləvan, ey şücaət nümunəsi, ey mənim şahsuvarım, ey Hüseyn!"**

sualcavab.ge



İmam Hüseyn (ə) dahilərin gözü ilə

**Antuan Baro**

*Livanlı xristian yazar*

**“Bəşəriyyətin tarixinin nə müasir, nə də keçmişində elə bir döyüş yoxdur ki, insanda Kərbəlada Hüseynin əzabkeşliyi və döyüşkənliyi qədər heyrətdə buraxsın.”**

ahli-beyt.ge

İmam Hüseyn (ə) dahilərin gözü ilə



**Tomas Masark**

*Avropalı mütəfəkkir keşiş*

**“Diqqət etsək, görərik ki, İsa Məsihin (ə) başına gələn bəlalar, Hüseynin Kərbəla müsibəti ilə müqayisədə, saman çöpünün dağla olan fərqi qədərdir.”**

imanmedia.ge

**Marbini**

*Fransalı Professor belə yazır:*

**“Müsəlmanların bir millət kimi mövcudluğu İmam Hüseynin şəhadətinə bağlıdır. Ona görə ki, Hüseyn eşqi ilə yanan bir şəxs heç vaxt zilləti, köləliyi qəbul etməz.”**

**Qabril Dankiri**

**“Yezidin qoşunu Aşura günü elə mənfur hərəkətlər etdilər ki, tarix o zamanadək belə çirkin əməllərin şahidi olmamışdı.Onlar hətta südəmər uşaqlara, qocalara belə rəhm etmədilər.Hüseynin başını Dəməşqə gətirdikdə, Yezid hakimiyyətinin möhkəmləndiyini və rahatlıqla rəhbərlik edəcəyini düşünürdü.Amma bunun əksi oldu...Hüseynin (ə) şəhadətinin xatirəsi və onun təsiri indiyədək davam etməkdədir.”**